ÜLVİ AYDIN



# ÇAĞLAYAN SEVGİ



*Mikayılov Ülvi Aydın oğlu 29 dekabr 1990-cı ildə Bakı şəhərində anadan olmuşdur.*

*2010 – cu ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, hal-hazırda IV kurs tələbəsidir. Oxuduğu dövrdə universitetin ictimai işlərində fəal iştirak etmişdir.*

*Müəllifin şeirləri Ülvi Aydın imzası ilə "Respublika gəncləri", "Bakı Universiteti", "Ziyalı", "Kaspi" qəzetlərində dəfələrlə işıq üzü görmüşdür.*

*"Üç nöqtə" və "Şəfəq" qəzetlərində yaradıcılığı haqqında məlumatlar verilmişdir.*

*Ülvi Aydının birinci kitabı "Düşünək gərək"- 2013-cü ildə işıq üzü görmüş, "Çağlayan sevgi" isə müəllifin ikinci kitabıdır.*

**ÜLVİ AYDIN**

# ÇAĞLAYAN SEVGİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

«Elm və təhsil»
Bakı-2014

*Redaktor:* **Sevinc Qocayeva**
Filologiya elmləri namizədi,
Bakı Dövlət Universitetinin dosenti

*Rəyçilər:* **Sürəyya Sultanova**
Bakı Dövlət Universitetinin dosenti

**İradə Rəhmanova**
Bakı Dövlət Universitetinin dosenti

**Xəyalə Əfəndiyeva**
Bakı Dövlət Universitetinin müəllimi

*Mətni yığan:* **Günay Aydın qızı**

**Ülvi Aydın. Çağlayan sevgi.**
**Bakı, "Elm və təhsil", 2014, 180 səh.**

ISBN 978-9952-8142-9-3

© Ülvi Aydın, 2014



## *Redaktordan*

Şeir-sənət aləminə ilk addımlarını atan gənc şair haqqında mühakimə yürütmək mürəkkəb və məsuliyyətli bir işdir. İlk oxunuşda Ülvi Aydının bu kitabda təqdim etdiyi lirik parçalarla bağlı fikir söyləmək mənə çətin gəlir, tərəddüd edirdim. Şeirləri diqqətlə oxuduqdan sonra buradakı bədii ifadə özünəməxsusluğu, milli şeirimizə məxsus axıcılıq, ibrətli məzmun tərəddüdlərimə son qoydu.

Ülvi Aydın hansı mövzuda yazırsa yazsın, fikirlərindəki səmimiyyət diqqəti cəlb edir:

*Göylərin yoxdur dili,*
*Dərdini deyə bilmir.*
*Özüylədir nisgili,*
*Onunçün üzü gülmür.*

*İnsanlar da göylərtək*
*Ağlayıban gülməsə,*
*Qubarlı qalar ürək,*
*Sirrin yarı bölməsə.*

XI əsrdən bu günə qədər əksər şairlərimizin yaradıcılığında dünyanın fəsadlı məkan olduğu bildirilir, *"yalan dünya", "fani dünya"* ifadələri yer alır.

Ülvi Aydının *"Dünya"* şeirinin son bəndi onun özünəməxsus sənət yoluna qədəm qoyduğundan xəbər verir:

*Dünya aldadandır, yoxsa aldanan?*
*Dünya qandırandır, yoxsa ki qanan?*
*Dünya həqiqətdir, yoxsa ki yalan?*
*Dünya yalançıdır, yoxsa bəndələr?*

Gənc şair insan və həyatla bağlı fikirlərini ifadə edərkən nikbindir, qətiyyən bədbinliyə qapılmır. Bunu onun məhəbbət mövzusunda yazdığı şeirlərinə də şamil etmək olar.

Bu kitab "Düşünək gərək"dən sonra tələbə Ülvinin ikinci şeirlər kitabıdır. Burada toplanan şeirlərin oxucular tərəfindən maraqla qarşılanacağına ümid edir, gələcəkdə daha mükəmməl və irihəcmli kitablarının çap olunacağına inanıram.

**Sevinc Qocayeva**
*Filologiya elmləri namizədi,*
*Bakı Dövlət Universitetinin dosenti*





## RƏY

Ülvi AYDININ şeirlərinin fəlsəfi-estetik istiqaməti mürəkkəb insan aləminin, Tanrının, həyatın, insanın dərkinə doğrudur. Müraciət etdiyi mövzudan asılı olmayaraq o, hər bir mövzuya çoxlarını düşündürən bəşəri problemlər çərçivəsindən baxır, həmin məsələlərin bədii-obrazlı həllini, şeir formalarında dəqiq ifadəsini axtarır, öz səmimi şair sözünü deməyə çalışır.

Bu dünyanın ən cavabsız suallarından biri də "Poeziya nədir?" sualıdır. Bu suala cavab tapmaqla biz təkcə poeziyanın deyil, bəlkə Allahın da sirlərinə açar ola biləcək yolu tapa bilərik. Şeirlərini oxuduqca adama elə gəlir ki, Ülvi AYDIN özü də bu fikirdədir. Onun gənc ömrünə, sevgi ilə dolu ürəyinə, şair taleyinə və ümumiyyətlə, insan həyatına həsr olunmuş şeirləri oxucunu dərin düşüncələrə qərq edən həssas poeziya nümunələridir. Ülvi yaşadığımız dünyadan, həyatdan, çoxlarını eyni düşüncə və ağrının üzərində kökləyən mövzulardan yazıb.

Ülvi AYDININ poeziyasında, demək olar ki, bütün şeirlərində həyatın poetik dərki və ifadəsi var. O, şeirləri ilə eyni taleyi yaşaya bilən bir insandır. Demək olar ki, bütün şeirləri Ülvinin tərcümeyi-halının sıxılmış, yığılmış ifadəsidir. Bu taledə həm savab, həm günah, həm sual, həm cavab, həm də Allaha olan ilahi sevginin, möminliyin qəribə qütbləşməsi var. Bu sadalananlar gənc şair taleyinin təzadlarını göstərsə də, "şair olmaqdan ötrü" vacibdir. Çünki poeziyanın gözəlliyi məhz bu qütbləşməyə bağlıdır.

Poeziya zəngin bir dünyadır. Ülvinin şeirlərini oxuduqca bu poeziyanın nə qədər böyük diqqət və məhəbbətlə yaradıldığını duyursan.

Ülvinin şeirlərini oxuduqca anlayırsan ki, bu kitabdakı heç bir əsəri masa arxasında sakitcə oturub yazmaq olmaz. Yüksək bədii dəyərə malik olan bu şeirlər həm də böyük gərilmənin məhsuludur. İstedad nə qədər yazmağı yox, nə qədər "gərilməyi bacarmaq"dır. Əgər şeiri "gərilmədən" rahatca yazsan, cild-cild kitabların olacaq, lakin yazdıqlarının heç biri poeziya nümunəsinə çevrilə bilməyəcək. Şeiri şeir edən də bu "gərilmə"dir. Məhz bu sıxılma nəticəsində sözlərin ürəkdən, beyindən kağıza qədər gəldiyi yol şairin özünə də çox uzun görünür.

Ülvinin yaradıcılığı ilə tanış olanda zərif duyğuların və idrakın mücəssəməsi olan bu poeziyanın bizə ömür yolunda etibarlı bələdçi olacağına şübhə ilə yanaşa bilmirsən. Hər bir şeir hansısa mövzuda insana, xüsusilə də öz həmyaşıdlarına – gənclərə yol göstərir, birinci növbədə günahlardan uzaq durmağı öyrədir.

Gənc qələm dostuma – istedadlı qardaşıma addımladığı bu şərəfli yolda yeni-yeni yaradıcılıq uğurları arzulayır, səsinin həmişə yüksək kürsülərdən gəlməsini arzulayıram.

ALLAH yolunu nurlu eləsin! Uğur hər zaman bu həyat yollarında Ülvi ilə bərabər addımlasın!

**Xəyalə Əfəndiyeva**
*Bakı Dövlət Universitetinin müəllimi*



# QƏZƏLLƏR

***

Gözləyirəm, mələyim, ey gözəl insan, gələsən,
Olasan sən gülərüz, bizə mehriban gələsən.

Biləsən istəyən də, istəməyən də var bizi,
Sən edib düşmənimi gərəkdir peşman, gələsən.

Deyəcəklər ki sənə, inanma öz aşiqinə,
Deyəsən onda gərək lənətişeytan, gələsən.

Gecələr yatanda mən xəyalım səninlə olur,
Gözlərim də gözləyir, söküləndə dan gələsən.

Hər kəsin gözlərini yandırır ol gözəlliyin,
Elə gəl ki, gözəlim, hamıdan pünhan gələsən.

Ey nigarım, bunu bil, gözümdə hər an ucasan,
Həmişə xan olmusan, istərəm ki, xan gələsən.

Gözəlim, bəlkə mənə naz eləyirsən sən özün,
İstəyirsən mənə sən yaşadıb hicran, gələsən.

Dediyim bir zarafat, həqiqət hesab eləmə,
Çalış ki, etməyəsən könlümü viran, gələsən.





Dilbəra, istəmirəm sən çəkəsən qəmü-kədər,
Əksinə, istəyirəm olub firavan gələsən.

Bu qədər gec gəlişin bil ki, məni bimar edib
Zamanı elə seç ki, dərdimə dərman gələsən.

Bilirəm vəfalısan, sədaqətlisən, gözəlim,
Gözləyirsən yetişə gözlədiyin an, gələsən.

Ülvinin istədiyi sevgili yarsan, gözəlim,
Amalım bircə budur, sən mənə canan gələsən.

***

Səni görcək gözəlim, mən sənə heyran oluram,
Görməyəndə üzünü, halı pərişan oluram.

Yaşayıb xəyalınla, dövr edirəm dövranımı,
Xəyalın olmasa bil, o dəm yarımcan oluram.

Görürəm ara-sıra röyalarda ay üzünü,
Sevinib yuxumda mən, o an firavan oluram.

Olur ki, görüşmürük sənlə, ey gül, röyada da,
Bilsən ki sən, mən necə qəlbi-nigaran oluram.

Baxıram rəsminə hey, gözüm doymur gül camaldan,
Sənlə ola bilmirəm, rəsminə mehman oluram.

Sənsizlik üzür məni, könlümü bərbad eləyir,
Elə ki, tək qalıram, gözləri giryan oluram.

Ülvinin qəlbinə sən yarə vurma, ey gözəlim,
Qəlbimə düşür yara, mən ürəyi qan oluram.





***

Eşq içrə yanan qəlbi gəl, sevgilim, qəm eyləmə,
Şən olan günlərimi bircə cəhənnəm eyləmə.

Dərdindən divanəyəm, gözəl, sənin aşiqinəm,
Sevgimə xoş cavab ver, məhəbbəti kəm eyləmə.

Nagüman etmə məni, qırma olan ümidləri,
Könlümü qarət edib, gözlərimi nəm eyləmə.

Sevginin vardı gücü, qüruru da qırmaq üçün
Toxunma qüruruma, qamətimi xəm eyləmə.

Düşünmə kədər verib, məni salasan azara,
Bu sayaq fikirləri sən başında cəm eyləmə.

Gözəlim, qüssə vermə, mənə məhəbbət payı ver,
Ülvinin sevən qəlbin dərd ilə bahəm eyləmə.

***

Səni mən, ey gözəlim, canıma canan bilirəm,
Yuxuya getdiyim an, röyama mehman bilirəm.

Tutsa gər azar məni, qorxmayıram o azardan,
Çünki mən, gülüm, səni dərdimə dərman bilirəm.

Xəyalən səninləyəm gecəni mən, gündüzü mən,
Qəlbimi qəlbin ilə, bərabər hər an bilirəm.

Məni eşqin yaşadır, bu dünyada, ey dilrüba,
Sənsiz mən bu dünyanı inan ki, viran bilirəm.

Ac olum, susuz olum, sənlə olum bircə, gözəl,
Sən olan hər məkanı rövzeyi-rizvan bilirəm.

Səsini duyan zaman itir gedir dərdü-məlal,
Səninlə danışdığım günü firavan bilirəm.

Ülvinin meyli düşüb sənin eşqinə, dilbərim,
Qəlbimə səni doğma, ən yaxın insan bilirəm.





***

Ey canımı alan gözəl, can almağın bəsdir, yetər,
Daş ürəkli insan çoxdur, heç kəs deyil sənin qədər.

Həsrətindən ölürəm mən, üzür məni bu ayrılıq,
Nə olar ki, ey dilbərim, sən salasan mənə nəzər.

Eşq evimi edib viran, yara vurma bu könlümə,
Yaralasan ürəyimi, eşqin üzü o an dönər.

Eşq həsrəti, sevgi dərdi cahan boyda dərdi-sərdir,
Ağlayır göz, sızlayır qəlb, dərd olarmı bundan betər?!

Mən razıyam, gülüm, sənin eylədiyin nazı çəkim,
Mənlə olsan, qəlb şad olar, yaşayarıq biz bərabər.

Bircə hə de, bitsin həsrət, qurtar məni bu bəladan,
Mən səninçün gör ki, gözəl, eyləyərəm nələr-nələr.

Hər an səni düşünürəm yuxuda da, həyatda da,
Ülvi gözün açır, gözəl, xəyalınla hər bir səhər.

***

Gülə gül gərək deyil, çiçək neyləyir çiçəyi,
Gözlərin piyalədir, dodaqların gül ləçəyi.

Baxıram saçlarına, saçların da ipək kimi,
Telini daramağa qoymaram əsən küləyi.

Ürəyim hər vuranda eşqin ilə vurur, gözəl.
Sənə əhsən deyirəm, məndən almısan ürəyi.

Huşumu çıxartmısan başımdan, ey gül, biləsən,
Arxanca düşüb səni axtarır gözmün bəbəyi.

Görəndə ay üzünü dünya olur sanki mənim,
Səninlə olan zaman istəmirəm su, çörəyi.

Gözəllik aşiqiyəm, bunu etiraf edirəm,
Gəzmirəm bər-bəzəyi, sənsən ömrümün bəzəyi.

Ülvinin xəyalının qonağı sənsən, mələyim
İnan ki, istəmirəm səndən ayrı bir mələyi.





***

Canımı eyləyirəm mən sənin yolunda fəda,
Ey nigarım, bilirəm təkcə səni ruha qida.

Mənə məlum idi ki, vardı sənin işvə-nazın,
Amma ki bilməyirdim, qədərsizdir səndə əda.

Bu qədər naz eləmə, ey gözəlim, aşiqinə,
Saf olan məhəbbəti, eşqimizi vermə bada.

Ayıra bilməyirəm başımdan mən xəyalını,
Görəsən sən, gözəlim, salırsanmı məni yada?

Nə yaman ağır imiş məhəbbətin dərd-azarı,
Min cürə dərman ola, dava-dərman çatmır dada

Nə olar, şimşək olub qəlbimə yağdırma alov,
Dilbərim, mərhəmət et, sən Ülvini atma oda.

***

Zülm etmə aşiqinə, aşiqinin qədrini bil,
Səni sevən aşiqin, gülüm, bil ki, cansız deyil.

Hər kəsin var ürəyi, mən də ürək sahibiyəm,
Bu qədər vermə əzab, dözməz ürək, durar qəfil.

Hər gecə, gülüm, sənin rəsminə mehman oluram,
Sadəcə aşiqinə təsəllidir bircə şəkil.

Baxıram ay üzünə, qönçə olan ləblərinə,
Cansız olan o şəkil o dəm edir məni mail.

Eşqindən uçub huşum, çıxıb gedib əqlim başdan,
Nə olar, insaf elə, gülüm, məni etmə sail.

Sevinək, gəl şad olaq, biz qoşa dövran eləyək,
Ülvinin ürəyindən dərdü-sərin xalını sil.





***

Çəkməkdən həsrətini qəlb olmuşdu para-para,
Düşmüşdüm həsrətindən sevgi adlı dərd-azara.

Gülmürdü üzüm mənim, qərq olmuşdum qəm-kədərə
Elə bil mənim üçün kainat geymişdi qara.

Hər kəs deyirdi mənə: "Dəyişmisən, de nə üçün?"
Söyləyə bilməyirdim, eşqdir çəkən məni dara.

Düşəndən eşqinə mən dolanırdım divanə tək,
Dar idi mənə dünya, bilməyirdim gedim hara.

Halsız olan bədənə sən can verdin gəlişinlə,
Sən gəldin həyatıma, çevrildi qışım bahara.

Elə ki hə söylədin, mən bildim ki sən mənimsən,
Silinib ürəyimdən itib getdi ağrı, yara.

Gülüm, inan sözümə, o aşiqlərdən deyiləm,
Sevim hər gün birini, könül verim hər nigara.

Ülvi yetdi vəslinə, nail oldu istəyinə,
Nəhayət, qoyuldu son ürəkdəki intizara.

Az-283474
M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

***

Sevgilim, gəl yanıma, məni qəmdən uzaq elə,
Qara olan günümün rəngini aç sən, ağ elə.

Qapılmışam özümə, bu dünya mənə dar gəlir,
Nə olar, gülüm, məni bədbinlikdən qıraq elə.

Dedim ki, tab edərəm həsrətinə, ey gözəlim.
Axı mən söyləmədim məni Məcnun sayaq elə.

Gəzirəm hüsnünü mən gecə-gündüz, ey dilrüba,
Nə olar, aşiqini gül hüsnünə qonaq elə.

Gəl sına sən özünü sevgi adlı imtahanda,
Qorxma, yoxdur zərəri, məhəbbətdə sınaq elə.

Elə bil ki, qaçırsan eşqi-məhəbbətdən uzaq,
Ülviyə sal bir nəzər, məhəbbətə maraq elə.



# ŞEİRLƏR

## AYSEL

Gəldin sevinc qatdın sevincimizə,
Dünyaya gəlişin xoş oldu bizə.
Getdiyin yollara, cığıra, izə,
Göydən nur ələnsin hər zaman, Aysel!

Atanın, ananın, Aysel, ilkisən,
Babanı, nənəni əziz bil ki sən.
Bizlər gülmək üçün, canım, gül ki sən,
Bizimçün xoş olsun güzəran, Aysel!

İtməsin ümidlər, nə də ki güman,
Yolunda olmasın sənin çən, duman.
Səni tərk etməsin gülümsər siman,
Yaşa həyatını firavan, Aysel!

Gülə gərəksizdir güllər, çiçəklər,
Bal da şirin deyil heç sənin qədər.
Xeyirlə açılsın, açılan səhər,
Sənə kömək olsun, Yaradan, Aysel!

Anan layla çalır, atan deyir can,
Baban, nənən olur, bil, sənə həyan.
Dayın da, bibin də söyləyir o an,
Sənin dövranındır bu dövran, Aysel!

Tanrı gözəl yazsın ömür payını,
Səadət bürüsün həftə, ayını.
Tezliklə dil açıb çağır dayını,
Dayın Ülvi desin sənə, can, Aysel!





## UŞAĞAM

Atam əl çəkəndə başıma mənim
Dərhal unudulur kədərim, qəmim.
Yenidən qayıdır uşaq aləmim,
O an düşünürəm, hələ uşağam.

Anam danışanda uşaqlığımdan,
Gəlir hafizəmə ötən o zaman.
Nə qədər dəyişib ötsə də dövran,
O an düşünürəm, hələ uşağam.

Mənim yaxşı keçib uşaq çağlarım,
Xatirə qalıbdır oyuncaqlarım.
Bəzən qızaranda bu yanaqlarım,
O an düşünürəm, hələ uşağam.

Uşaqkən dediyim bir neçə söz var,
Hələ də dillərdə qalıbdır şüar.
İndi eşidəndə onları təkrar,
O an düşünürəm, hələ uşağam.

Vardır əhatəmdə dostum, yoldaşım,
Hələ ağarmayıb saçım, nə başım.
Hər dəfə yaş üstə gələndə yaşım,
O an düşünürəm, hələ uşağam.

## SƏNİ SEVİRƏM

Mən Məcnun olmuşam, səndə ki Leyla,
Qaşların qaradır, gözlərin ala.
Sevmərəm heç kəsi sən qala-qala,
Mən səni sevirəm, de, bəs sən necə?

"Yox" deyib dünyamı etmə qaranlıq,
Mənim yerimdə ol sən də bir anlıq.
Elə et, xoş olsun bizim cavanlıq,
Mən səni sevirəm, de, bəs sən necə?

Sənin əlindədir eşqin açarı,
Düşünmə qohumu, nə də kənarı,
İstərəm, verəsən doğru qərarı,
Mən səni sevirəm, de bəs sən necə?

Cavab gözləyirəm mən səndən qəti,
Bacar, gəl qaçırtma sən bu qisməti.
Yaşayaq birlikdə saf məhəbbəti,
Mən səni sevirəm, de, bəs sən necə?

Hə desən, sən məni ucaldacaqsan,
Qara ürəklərə od salacaqsan.
Çünki sən mənimlə bir olacaqsan,
Mən səni sevirəm, de, bəs sən necə?
Səni düşünürəm gündüz və gecə.





## DÜNYA

Dünyanın əzəldən belədir işi,
Bu gün təkrar edir çox vaxt keçmişi.
Dünyanın bir damcı yox nəvazişi,
Dünya günahkarmı, yoxsa bəndələr?

Dünyada olanlar, ölənlər də var,
Ağlayan, oynayan, gülənlər də var.
Dünyayla sirrini bölənlər də var,
Dünya qəribədir, yoxsa bəndələr?

Dünya heç bir kəsə vermir hesabat,
İnsanlar işçidir, dünya təşkilat.
Dünya dincəlirmi, görən, bir saat?
Dünya çox işləyir, yoxsa bəndələr?

Dünya aldadandır, yoxsa aldanan?
Dünya qandırandır, yoxsa ki qanan?
Dünya həqiqətdir, yoxsa ki yalan?
Dünya yalançıdır, yoxsa bəndələr?
Sualın cavabı nə zaman gələr?

## YAXIN GƏL

Bənizi ağappaq qarlı dağ kimi,
Olubdur qəlbimin indi hakimi.
Bilsəydi işarə, ya da him-cimi,
Edərdim işarə, mənə yaxın gəl.

Yanağı almadır, dili şirin bal,
Bu gözəl edibdir məni halbahal.
Başımda dolaşır min cürə xəyal,
Qalmışam biçarə, mənə yaxın gəl.

Gözlərin qaradır, qaşların kaman,
Gözəl yaradıbdır səni Yaradan.
Məndən uzaqlaşma, a nazlı ceyran,
Çəkilmə kənarə, mənə yaxın gəl.

Tellərin edibdir lap məni heyran,
İstərəm, yanımda olasan hər an.
Nə vaxt olacaqsan sən mənə mehman?
Olmuşam avarə, mənə yaxın gəl.

Daima görəydim gülər üzünü,
Hər an eşidəydim şirin sözünü,
Dərdindən xəstəyəm, deyim düzünü,
Düşmüşəm azarə, mənə yaxın gəl.





## DAHA

Bəlkə, mən bilmədən incidin məndən,
Qəlb qəlbdən ayrıdır, bülbül çəməndən.
Qaçırsan kənara sən günü-gündən,
Sirrini mənimlə bölmürsən daha.

Sən getdin, gəldilər kədər ilə qəm,
Görən, hara getdi əvvəlki o dəm?
Qabaqlar olurdun mənimlə bahəm,
Dərdimi, sərimi bilmirsən daha.

Əvvəllər deyirdin sirdaşın mənəm,
Sanki sən olurdun qəlbimə həmdəm.
İndi başqalaşıb, deyəsən, aləm,
Mənimlə danışıb gülmürsən daha.

Desən də, üzünə olmayacam ağ,
Sevgimi elədin adi oyuncaq.
Sözünün üstündə durmadın ancaq,
İndi heç utanıb ölmürsən daha.

Mənim həmişə var haqq-ədalətim,
Sənə qalmayıbdır daha hörmətim.
Hörmət əvəzinə vardır nifrətim,
Hətta yuxuma da gəlmirsən daha.

## MƏNİMÇÜN OLSUN

Nə görsən, salırsan sən tamahını,
Ancaq düşünürsən öz sabahını.
Unutma heç zaman sən Allahını,
Demə ki, nə olsa, mənimçün olsun.

Sızladın, axıtdın gözünün yaşın,
Birinci səninçün aldılar maşın.
Bir düşün, var sənin subay qardaşın,
Demə ki, nə olsa, mənimçün olsun.

Sən bəzən edirsən Tanrını inkar,
Etməyə tamahın eyləyir vadar.
Hamıya görünür bu açıq-aşkar,
Deyirsən, nə olsa, mənimçün olsun.

Özün gözləyirsən hamıdan hörmət,
Lakin yetirmirsən heç kəsə diqqət.
Səni düşündürür pul, para, sərvət,
Deyirsən, nə olsa, mənimçün olsun.

Haqqında yazmağa utanır qələm,
Deyirsən bir mənəm, bir də ailəm.
Səni düşündürmür ayrı bir aləm,
Deyirsən, nə olsa, mənimçün olsun.





Övladın götürür səndən tərbiyə,
Heç zaman əl atma kələk, hiyləyə.
O da böyüyəcək pul deyə-deyə,
Deyəcək, nə olsa, mənimçün olsun.

Olsa da nə qədər qızıl-zinətin,
Amma bilməyirsən qədir-qiymətin.
Gözünü doyurmaq çətindir, çətin,
Deyirsən, nə olsa, mənimçün olsun.

Ülvi, bu şeirlə verdin nəsihət,
Qoy olsun hər kəsə kiçik məsləhət.
Çalış ki, edəsən edənə hörmət,
Demə ki, nə olsa, mənimçün olsun.

## DÖZƏ BİLMİRƏM

Gülüm, eşqimizi nə üçün dandın?
De, kimin sözünə axı aldandın?
Həm məni yandırdın, həm özün yandın,
Həsrətin eylədi qamətimi xəm,
Daha sənsizliyə dözə bilmirəm.

Bilsən, sənsiz keçir həyatım necə,
Sən də sızlayarsan qəlbinlə məncə.
Qəm, kədər edirəm xəfif, gizlicə,
Bilsəydin, olardın yarama məlhəm?
Daha sənsizliyə dözə bilmirəm.

Sənsizlik çəkdirir, gülüm, mənə ah,
Kaş bunu eşidib olasan agah.
Mən tənha deyiləm, hər axşam-sabah.
Olurlar mehmanım kədər ilə qəm,
Daha sənsizliyə dözə bilmirəm.

Deyirdin, yaşayaq biz xoşbəxt həyat,
Eşidib o sözü olurdum rahat.
Mən əzab çəkirəm indi iki qat,
Nə üçün edirsən, gözəlim, sitəm?
Daha sənsizliyə dözə bilmirəm.





Xoş idi səninlə keçən günlərim,
Çıxmayıb yadımdan ötən illərim.
İndi ağarıbdır qara tellərim,
Günlərim keçməyir, bil ki möhtəşəm,
Daha sənsizliyə dözə bilmirəm.

Deyirdin, eşqinlə döyünür ürək,
Görən, niyə əsdi bəs soyuq külək?
Özün də dəyişdin, ey huri mələk,
Mənsə dəyişmədim, o aşiq mənəm,
Daha sənsizliyə dözə bilmirəm.

## ŞƏRAB

İçdi şirdi, içməyəndə lal quzu,
Seçə bilmir o, qəmərdən ulduzu.
Şəkər bilir görən zaman ağ duzu,
Biz nə deyək bu tipli insanlara.

Adam var ki, pulu verir şəraba,
Sonra düşür mədə, ciyər əzaba.
Söz də desən, cavab verəcək qaba,
Bil ki səbəb olur içki qanlara.

Araq ağdır, qara edir şöhrəti,
Qədərsiz içsən, itirir hörməti.
Zəifləkdir hafizəni, diqqəti,
Azar gəldi, baxmayır imkanlara.

Dilsiz adam içdi şərab, dillənir,
Yeyir, içir, bir balaca şellənir.
Ayaq üstə durur, ancaq yellənir,
Xəyalında gedir ötən anlara.

Adam var ki, şərab içir xəlvəti,
Piyan oldu, unudur şəriəti.
Bilməliyik ancaq bir həqiqəti:
Şərab içmək haram müsəlmanlara.





## DƏRDİNİ ÇƏKMƏ

Dərd çəkib qazandın kədər ilə qəm,
Xoş deyil yaşamaq dərd ilə bahəm.
Bir azda özünçün yaşa möhtəşəm,
Heç kəsin dərdini çəkmə sən daha.

Demirəm, arsız ol, biganə dolan,
Biganə olmağın özü də yaman.
Qəm-kədər çəkməkdən üzülür insan,
Heç kəsin dərdini çəkmə sən daha.

Qardaşı, bacını düşünmək gərək,
Heç onlar düşünür, səni sənin tək?
Sən et onlar üçün xoş arzu-dilək,
Heç kəsin dərdini çəkmə sən daha.

Dərd çəkmək verməyib bir kəsə səmər,
Bu nə igidlikdir, nə də ki hünər.
Demə ki, dərd ilə yaranıb bəşər,
Heç kəsin dərdini çəkmə sən daha.

Qəm edib həyatı tez bitirirsən,
Ömür sərvətini sən itirirsən.
Dərd çəkib dərd üstə dərd gətirirsən,
Heç kəsin dərdini çəkmə sən daha.

Üz vermə bu qədər kədərə, aha,
Ürəkdən dua et böyük Allaha.
İnamla addımla gələn sabaha,
Heç kəsin dərdini çəkmə sən daha.

## TANIYANLAR DANIŞSIN

Yersiz yerə heç bir işə qarışma,
Var-dövlətlə öyünməyə çalışma.
Özün haqda "mən-mən" deyib danışma,
Qoy haqqında tanıyanlar danışsın.

Sən hər zaman özünə et hörməti,
Verdinsə söz, arxasında dur qəti.
Ağlın ilə sən cəlb elə diqqəti,
Qoy haqqında tanıyanlar danışsın.

Bir kəsə yaxşılıq eyləsən əgər,
Gözləmə qarşılıq, nə də ki səmər.
Demə ki, etmişəm böyük bir hünər,
Qoy haqqında tanıyanlar danışsın.

Fəxr eylə hər yerdə ədalətinlə,
Qürur duy vəfanla, sədaqətinlə.
Özünü təsdiqlə cəsarətinlə,
Qoy haqqında tanıyanlar danışsın.

Haqqı görən anda danışma nahaq,
Çalış ki, kasıba olasan dayaq,
Böyüklə böyük ol, uşaqla uşaq,
Qoy haqqında tanıyanlar danışsın.





## MƏN SƏNİNƏM, SƏN DƏ MƏNİM

Gözəlliyin göz çıxarır,
İnan, məni məndən alır,
Gözüm gözlərində qalır,
Ol mənim könül həmdəmim.

Sənlə xoş olar hər anım,
Həm çətinim, həm asanım,
Sənsən dərdimə dərmanım,
Yəni ki yara məlhəmim.

Görən zaman gül üzünü,
Duyanda şirin sözünü,
Deyim sənə qoy düzünü,
İtib gedir dərdü-qəmim.

Hər arzu, hər diləyimə
Yetiş mənim köməyimə,
Gəl dağ çəkmə ürəyimə,
Sənlə gözəldir aləmim.

Bənizində görürəm nur,
Sevmək deyil axı qüsur,
Getmə, dayan, nə olar, dur,
Şirindi sənlə hər dəmim.

Sən Tanrıdan pay gəlmisən,
Ulduz, yoxsa ay gəlmisən?
Sən mənə həmtay gəlmisən,
Ay mənim həyat ülkərim.

Mənə səndən gəlir ilham,
Fərq etməyir səhər-axşam,
Bil ki, gülüm, həmin məqam,
Şeirlər yazır qələmim.

Sevmək üçün yubanmısan,
Sən də mən tək utanmısan,
Sən mənimçün yaranmısan,
Mən səninəm, sən də mənim.





## XOŞUM GƏLİR

Yeriyirsən, yerişin canlar alır,
Hər addımın məni lap xəstə salır.
Sən gedirsən, ardınca gözüm qalır,
Yerişindən, izindən xoşum gəlir.

Kirpiklərin düzülüb mirvari tək,
Sənsizliyə dözməyir sevən ürək.
Məni dəli eyləyir bu göz-bəbək
Süzüləndə gözündən xoşum gəlir.

Səni sevən aşiqin diqqətlidir,
Kəlmələrin şirindir, ləzzətlidir.
Mənim üçün hər sözün qiymətlidir,
Dediyin hər sözündən xoşum gəlir.

Azalmasın simandan gülüşlərin,
Yoxdur sənin dünyada bərabərin.
Olmayasan sirdaşı qəm-kədərin,
Gülüm, gülən üzündən xoşum gəlir.

Baxıb sənə alıram səndən ilham,
İstəyirəm, sevginin dadın dadam.
Hər nazını çəkməyə mən razıyam,
Naz et, sənin nazından xoşum gəlir.

Gözəllərin gözüsən, gözəlisən,
Qəlb sirdaşım, eşqimin əzəlisən.
Gülüm, bil ki, Ülvinin gözəli sən,
Mənim sənin özündən xoşum gəlir.

## SÖYLƏMƏ

Şirin-şirin danışanda, güləndə,
Gəlib sənlə hər sirrimi böləndə,
Gülüm, səni sevdiyimi biləndə,
Bircə mənə "yox" sözünü söyləmə.

Ay gözəlim, anan izin verəcək,
Təbiəti gedək bir az seyr edək.
Cavabını gözləyirəm sübhədək,
Bircə mənə "yox" sözünü söyləmə.

Mən olmuşam gözlərinin heyranı,
Tək səndədir dərdlərimin dərmanı.
İstəyirsən, sürək qoşa dövranı,
Bircə mənə "yox" sözünü söyləmə.

Ağlın ilə mən edirəm iftixar.
Qəlbdə vardır neçə-neçə arzular.
Etməməkçün qəlb evimi tarü-mar
Bircə mənə "yox" sözünü söyləmə.

Mən razıyam gözləməyə bircə il,
Başqa sözlə, ötüb keçsin dörd fəsil.
Mənim təkcə istədiyim budur, bil,
Bircə mənə "yox" sözünü söyləmə.





Fərhad kimi qaya yarım səninçün,
Desən ki, yar, yaracağam büsbütün.
Gözləyirəm, fərmanını ver bu gün,
Bircə mənə "yox" sözünü söyləmə.

Yayda məndən istə şaxta, boran, qar,
Hələ sənin əlindədir ixtiyar.
Yaxşı-yaxşı düşün, özün ver qərar,
Bircə mənə "yox" sözünü söyləmə.

## AXTARIRMI HEÇ

Xəyaldan ayırdı məni xışıltı,
İçimi göynədir sanki sızıltı,
Qulağıma gəlir sakit pıçıltı,
Görən, yarım məni axtarırmı heç?

Bunu pıçıldayan sevən ürəkdir,
Sevgilim gözümdə dünyada təkdir,
Mənə hər bir zaman yarım gərəkdir,
Görən, yarım məni axtarırmı heç?

Niyə sormur məni mənim özümdən,
Bəlkə, inciyibdir yarım sözümdən?
Bircə an getməyir üzü gözümdən,
Görən, yarım məni axtarırmı heç?

İndi mən sevgimin sınağındayam,
Bəlkə, kimlərinsə qınağındayam,
Sanki mən uçurum qırağındayam,
Görən, yarım məni axtarırmı heç?

Kəsəkli yolları tənha keçmişəm,
Əzab şərbətini dadıb içmişəm,
Mən yarımı sevib, özüm seçmişəm,
Görən, yarım məni axtarırmı heç?





Bir gözüm gülümsər, bir gözümsə nəm,
İçimdə çarpışır sevinc ilə qəm,
Yarımı bilmişəm özümə həmdəm,
Görən, yarım məni axtarırmı heç?

Başımda dolaşır min cürə xəyal,
Halım fənalaşıb, olur halbahal,
Ülvi öz-özünə eyləyir sual:
Görən, yarım məni axtarırmı heç?

## SƏNLƏ OLANDA

Mənə gərək deyil sıx meşə, boz dağ.
Mənə gərək deyil göy çəmən, yaylaq.
Mənə gərəklidir sənlə olan çağ,
Mən xoşbəxt oluram sənlə olanda.

Bəzən gözlərimə görünür kölgən,
Mən elə bilirəm, bu, sən özünsən.
Ürəyim sevinir, şad oluram mən,
Mən xoşbəxt oluram sənlə olanda.

Gülüm, məni qoyub hara gedirsən?
Bilsən, bu gedişlə nələr edirsən.
Ömür ağacımdan yarpaq dərirsən,
Mən xoşbəxt oluram sənlə olanda.

Dilin çox şirindir, sözlərinsə bal,
Nə olar, gözəlim, getmə, mənlə qal.
Səninlə olanda xoş olur əhval,
Mən xoşbəxt oluram sənlə olanda.

Gəzib dolansam da cümlə-cahanı,
Cahanda, gözəlim, sənə tay hanı?
Gəzmək istəmirəm sənsiz dünyanı,
Mən xoşbəxt oluram sənlə olanda.

Ülvi daha dözmür heç sənsizliyə,
Çünki sən olmusan qəlbimə yiyə.
Səni çox sevirəm, bilirsən niyə?
Mən xoşbəxt oluram sənlə olanda.





## MƏHƏBBƏT ƏFSANƏSİ

Kiminə adidir, kiminə dəhşət,
Yarla görüşməmək müəyyən müddət.
Yaman uzun oldu, gülüm, bu həsrət,
Səni görməyimdən ötübdür bir il.

Ayrılıq olsa da, uğurumuz var,
Getdim, gəzdim, gördüm bir başqa diyar.
Xəyal deyil, gerçək oldu arzular,
Bizi ayrı saldı xaricdə təhsil.

Unutmaq olarmı belə əyyamı?
İndi qeyd edirik gözəl bayramı.
Nə yaxşı görüşdük bir yaz axşamı,
Mənimçün bahardır ən gözəl fəsil.

Qışda ayrılmışdıq, görüşdük yazda,
Hələ eyləyirsən sən mənə naz da.
Deyirsən, gözləyim yenə bir az da,
Yəni ki mən olum çöllərdə səfil?

İki gün gec gəldim, bilirsən niyə?
Səninçün hədiyyə gəzirdim diyə.
Nəhayət, axtarıb tapdım hədiyyə,
Məni gecikdirdi balaca bir fil.

Dərsdən çıxıb evə getdiyim zaman,
Düşürdü yadıma sənlə olan an.
Deyirdim: görəsən, hardadır canan?
Bunu biixtiyar söyləyirdi dil.

Təklikdən artırdı kədərim, qəmim,
İndi tənha qalıb könül həmdəmim.
Gözümün önünə gəlirdin mənim
Bir don geyinmişdin, üstü də çil-çil.

Axşamlar gələndə hər gün evə mən,
Bilmirdim, danışım kiminlə nədən.
Çox az-az olurdu yanıma gələn,
Tək-tənha oturub çəkirdim şəkil.

Xaricə getdiyim elə həmin gün,
Dörd sətirlik şeir yazdım səninçün.
Həsr etdim şeiri sənə büsbütün,
İndi qoy oxuyum, sən də eşit, bil.

Biz ayrı düşməyək doğma diyardan,
Heç doymaq olarmı sən kimi yardan?
Xəbər alma məni, gülüm, kənardan,
Məni məndən soruş, özgədən deyil.





Arzumdur, yaşayaq biz xoşbəxt həyat,
Çətinlik olsa da, olma narahat.
Demirəm, keçmişi tamam unut at,
Bəsdir, olanları biz etdik təhlil.

İndi mənimləsən, gülüm, bərabər,
Ülvi səni sevir öz canı qədər.
Yenidən vuruldum sənə sərasər,
Mənsiz günlərini yaddaşından sil.

# MƏHƏBBƏT YOLU

Bir yola çıxmışıq səninlə yenə,
Mən sənə arxayın, səndə ki mənə.
Amma ki bu yolun sonu bilinmir,
Bu yol çoxlarına olub ənənə.

Bu yol məhəbbətin yoludur, inan,
Bu yolda olmasın gərək heç yalan.
Sözümüz bir olsun, bir olaq, gülüm,
Onda yaxşı keçər həyat, güzəran.

Səninlə çıxmışdıq yola əvvəllər,
Bu yolda var idi bizə bənzərlər.
O adi yol idi, bu sevgi yolu,
Kim bilir, bu yolda nələr var, nələr.

Bu yolun söhbəti, sözü böyükdür,
Bu yol çox uzundur, özü böyükdür.
Əvvəli şirindir, sonuysa acı,
Bu yolun nəşəsi, közü böyükdür.

Sərt bir uçurumdur yolun sağ-solu,
Adi bir yol deyil bu sevgi yolu.
Bu yolda dərələr, təpələr çoxdur,
Enişi, yoxuşu doludur, dolu.





Bu yolun yolçusu olmaq çətindir,
Sonadək gedənlər bil ki, mətindir.
Bu yolda gözləmə heç kəsdən kömək,
Tək bircə köməyin öz diqqətindir.

Bu yolda çox olur qara tikanlar,
Olub ki, bu yolda tökülüb qanlar.
Kimsənin sözünə uymaq nə lazım,
Yoluna buraxma kənar insanlar.

Öyrədən çox olur mənfi, ya müsbət,
Gərək verməyəsən heç əhəmiyyət.
Deyilən hər sözü dinlə aramla,
Bax, götür özünə yaxşıdan ibrət.

O yolu gedirik biz də bərabər,
Bu yolda olacaq sevinc, qəm, kədər.
Məhəbbət yolunun qanunu budur,
Bizə lazım deyil yad tövsiyələr.

Araya salmayaq sözü-söhbəti,
Birlikdə yaşadaq saf məhəbbəti.
Biz ömür yaşayaq gözəl, firavan,
Qoy görək necədir həyat ləzzəti.

## İTİRMƏ

Qazanmaq çətindir, itirmək asan,
Verdinsə söz, gərək üstə durasan.
Olur ki, itirir onu bir yalan,
Qazandığın hörmətini itirmə.

Düşünmə, hər işi para həll edir,
Pul necə gəlirsə, elə də gedir,
Namus, həya, abır puldan öndədir,
Namusunu, qeyrətini itirmə.

Pul ilə özünü heç zaman öymə,
Özündən acizə qışqırıb söymə,
Səhv edib sonradan başına döymə,
Əvvəlcədən fürsətini itirmə.

Unutma atanın sən etdiklərin,
Atanın borcunun zərrə qədərin,
Qaytara bilərsən, çatar hünərin?
Ata-ana zəhmətini itirmə.

Qaydası belədir indi dövranın,
Nə qədər vardırsa pulun, imkanın,
O qədər olacaq şöhrətin, şanın,
Ağıllı ol, şöhrətini itirmə.





İndi səninlədir bütün qohumlar.
Bəllidir hər kəsə bu açıq-aşkar
Balaca olsa da, bir şirkətin var.
Əldə saxla, şirkətini itirmə.

Olsa da hər kəsin varı, dövləti,
Tanrı verib sənə hər cür neməti.
Ən böyük sərvətdir ağıl sərvəti,
Ülvi, ağıl sərvətini itirmə.

## GÜMANIM VAR

Əhsən azəri qızına,
Naz da çatmayır nazına,
Vurulmuşam avazına,
O yox deməz, gümanım var.

Qızla olub ünsiyyətim,
Uyğun gəlir xasiyyətim,
Görünür, mənfi-müsbətim,
Yaxşım, həm də yamanım var.

Mən o qızı izləyəcəm,
Ürəyimə döz deyəcəm,
Gözlə desə, gözləyəcəm,
Gözləməyə zamanım var.

Həsrət çəkmək çətin olur,
Çün məhəbbət qəlbə dolur,
Düzdür, insan gül tək solur,
Amma hələ amanım var.

Qız hə dedi, bitdi həsrət,
İstədiyim oldu qismət,
Yara lazım qayğı-diqqət,
İndi diqqət umanım var.





Əgər sevsə sevgili yar,
Hər nöqsanı etməz aşkar,
Kiçik səhvə gözün yumar,
Mənim də göz yumanım var.

Məcnunun görünür yeri,
Ülvi ondan qalmır geri,
Yazıram qəzəl-şeiri,
Sevgi adlı romanım var.

## PEŞMAN DEYİLƏM

Nə səhər yatırdım, nə də ki axşam,
Yadımdan çıxmayır həmin o məqam.
Sən mənim yuxuma qatsan da haram,
Səni sevməyimə peşman deyiləm.

Həsrətin sinəmdə od qalasa da,
Xəyalın beynimi çalxalasa da,
Sənsizlik qəlbimi parçalasa da,
Səni sevməyimə peşman deyiləm.

Sən dərin edirdin hər bir dayazı,
Özün də sevirdin məni ən azı,
Sən mənə etsəndə işvəni, nazı,
Səni sevməyimə peşman deyiləm.

Nə desəm, deyirdin, yox, olmaz qəti,
Elə bil edirdin mənə nifrəti,
Mənə çəkdirsən də sən əziyyəti,
Səni sevməyimə peşman deyiləm.

Öncələr qoyurdun mənə çətin şərt,
İndi o şərtindən olmusanmı pərt?
Bəzən danışsan da mənimlə sərt-sərt,
Səni sevməyimə peşman deyiləm.





Nəhayət, sən oldun mənim qismətim,
Yaxşı ki qurtardı bitdi həsrətim,
Məni aldatmadı mənim diqqətim,
Səni sevməyimə peşman deyiləm.

Bir vaxt xəyalınla yaşayırdım mən,
İndisə səninlə bir yerdəyik tən.
Özüm sevdiyimçün razıyam səndən,
Səni sevməyimə peşman deyiləm.

## ÇƏKƏNLƏR BİLƏR

Sən mənə bəxş etdin nisgili, ahı,
Köməyə çağırdım qadir Allahı.
Edə bilməyirəm indi izahı,
Həsrət yaman olur, çəkənlər bilər.

Sevirdim, sevirəm səni ürəkdən,
Halını soruram qardan, küləkdən,
Ətrini alıram güldən, çiçəkdən,
Həsrət yaman olur, çəkənlər bilər.

Bilməzdim, olaram sevginin qulu,
Axtarıb tapmırdım bir çıxış yolu,
Gözlərim gəzirdi hər an sağ-solu,
Həsrət yaman olur, çəkənlər bilər.

Sağda da, solda da görürdüm səni,
Gözümün önündən getmirdin yəni,
Sən yoldaş eylədin həsrətə məni,
Həsrət yaman olur, çəkənlər bilər.

Sən məni həsrətlə qoyub baş-başa,
Bəlkə də, kənardan etdin tamaşa.
İndi deyirsən ki, firavan yaşa,
Həsrət yaman olur, çəkənlər bilər.





Mən oldum bir müddət həsrətlə yoldaş,
Sirrimi bölməyə tapmırdım sirdaş,
İndi etdiyini tez edəydin kaş,
Həsrət yaman olur, çəkənlər bilər.

Qətiyyən dönmədim öz inadımnan,
Həsrətli günlərim çıxmır yadımdan,
Adın bir çəkilir indi adımnan,
Həsrət yaman olur, çəkənlər bilər.

İndi biz xoşbəxtik sənlə bərabər,
Ülviyə zülm etdin, gülüm, sərasər.
Bitdi, getdi həsrət, qüssə, qəm, kədər,
Həsrət yaman olur, çəkənlər bilər.

## XİLAF ÇIXMADIN

Sevgimin uğrunda xəyallar qurdum,
Sən də mənim təki özünü yordun,
Söz verib sözünün üstündə durdun,
Verdiyin vədlərə çıxmadın xilaf.

Ağlına sözüm yox, düşüncən dərin,
Bircə sözüm budur, sənə afərin,
Etiraf etməyə çatdı hünərin,
Məni sevdiyini etdin etiraf.

Səndən danışıram, heç yorulmuram,
Səni düşünürəm mən səhər-axşam,
Sənin xəyalından alıram ilham,
Səndən eyləyirəm bütün günü laf.

Sevirəm deyibən etmədin kələk,
Qızların hər biri olsa sənin tək,
Onda ayrılığa heç olmaz gərək,
Kaş qızlar olaydı sənin kimi saf.

Nəzər salaq gəl biz birgə əzələ,
Marağım olsa da şeir-qəzələ,
Şeir yazmamışam heç bir gözələ,
Ülvi edir sənə şeiri ithaf.





## ALİM OXUYANDA

İtir həsrət, itir cəfa,
Səsində var zövqü-səfa,
Xəstə adam tapır şəfa,
Alim muğam oxuyanda.

Gedib bir çox ölkələrə,
Aşıb dağlar, keçib dərə,
Səsi yayılır ellərə,
Alim muğam oxuyanda.

Daima var olsun səsi,
Qüvvətlənsin şux nəfəsi,
Ruhlandırır hər bir kəsi,
Alim muğam oxuyanda.

Ucalarda olsun Alim,
Söylə bunu istəmir kim?
Ürəklərə olur hakim
Alim muğam oxuyanda.

Adı yüksək pillələrdə,
Hər an olur zirvələrdə,
İnan susur güllələr də,
Alim muğam oxuyanda.

O uymayır şöhrət, ada,
Səsi verib ona Xuda,
Ülvi Aydın alır qida,
Alim muğam oxuyanda.

## BƏXTƏVƏR

Qızın ərə gedir, oğlun evlənir,
Kənardan baxanlar bəxtəvər deyir.
Daxildə olanlar gec çıxır üzə,
Hər bir kəs hər şeyi vermir biruzə.

Zəhmətlə qızına cehiz alırsan,
Mövzu sən olursan, yadda qalırsan.
İllərlə hər bir kəs səndən danışır,
Kimisi sevinir, kimi alışır.

Qızının yoxdursa qayınanası,
Deyirlər, gözəldir onun dünyası.
Öz əli, öz başı, sərbəstdir indi,
Az işlət deyən yox, konfeti, qəndi.

Əgər olmayırsa qayınatası,
Deyirlər, heç onda yoxdur xətası.
Evdə keçərlidir qızın hər sözü,
Rəhbərlik eyləyir hər işə özü.

Oğlanın atası, anası da var,
O zaman ayrı cür söhbət yayırlar.
Filankəsin qızına bax, bəxtəvər,
Gözün üstə qaşın var, deməyir ər.





Qayınana yaxşı baxsa gəlinə,
Söhbət düşür bir çoxunun dilinə.
Qoymur evdə gəlini işləməyə,
Özü baxır hər işə, çay-yeməyə.

Bəxtəvər görünür kənardan hər kəs,
Deyənlər deməyib bu sözü əbəs.
Qoy olsun adamın mincə yeyəni,
Amma ki olmasın bircə deyəni.

## ÜRƏK DEYİR

Yenə dalmısan xəyala,
Sən düşmüsən haldan-hala,
Vurulmusan bir marala,
Qulağıma bu səs gəlir.

Çox sevirsən o nigarı,
O da gəlir sənə sarı,
Birgə vermisiz qərarı,
Söyləmə, səs əbəs gəlir.

Sevdiyini etmə nihan,
Sevə bilər hər bir insan.
O gündən ki vardır canan,
Səndən yeni nəfəs gəlir.

Hər şey olur mənə əyan,
Dayanmazsan, desəm dayan,
Görüşməyə atırsan can,
Çünki sənə həvəs gəlir.

Yaman düşmüsən təşvişə,
Sən istidən bişə-bişə
Gedirsən yarla görüşə,
Dayanma get o kəs gəlir.

Heç nə olmur məndən xəlvət,
Eyləyərik sonra söhbət,
Görüşməyə vardır fürsət,
Ülvi tez ol, tələs, gəlir.





## ÇƏKİLƏSİ DƏRD DEYİL

Taleyim gülməyir mənim üzümə,
Ürəyim baxmayır daha sözümə,
Dünya zülmət çökür indi gözümə,
Mənim dərdim çəkiləsi dərd deyil.

Dərdimə dözməyib titrəyər dağlar,
Əgər agah olsa, göylər də ağlar,
Bəlkə də, deməzdim mən heç qabaqlar,
Mənim dərdim çəkiləsi dərd deyil.

Mən qulu olmadım şöhrətin, adın,
Dadmadım həyatın ləzzətin, dadın,
Daha çox görmüşəm acı fəryadın,
Mənim dərdim çəkiləsi dərd deyil.

Yanında olsam da neçə loğmanın,
Amma tapan yoxdur, dərdin dərmanın,
Elə bil məndədir dərdi dünyanın,
Mənim dərdim çəkiləsi dərd deyil.

Dərdimi sormayın qoy qalsın pünhan,
Görən, olacaqmı elə bir insan,
Heç dərdi olmasın, olsun firavan?
Mənim dərdim çəkiləsi dərd deyil.

İstəməm dərdimi açım söyləyim,
Hər dosta, yoldaşa giley eyləyim.
Həyatım belədir, axı neyləyim?
Mənim dərdim çəkiləsi dərd deyil.

Dərdimlə qalanda tənha baş-başa,
Dərdim gülür, mənə edir tamaşa,
Deyir bacarırsan, get mənsiz yaşa,
Mənim dərdim çəkiləsi dərd deyil.





## YƏQİN, GÖRÜŞƏRİK

Gecələr yuxuma gəlirsən mənim,
Qoymursan yatmağa məni zərrəcə.
Bilsəm ki, olarsan könül həmdəmim,
Nə gündüz yataram, nə də ki gecə.

Etmək istəyəndə səninlə söhbət,
Sən gah danışırsan, gah da susursan.
Sənlə danışmasam, çəkirəm həsrət,
Yəqin ki, sən özün bunu duyursan.

Gündüzlər xəyalın, gecələr özün,
Qoymursan, azadə gəzim dolanım.
Beynimdə dolaşır söhbətin sözün,
Özün rəhimlisən, ürəyin zalım.

Söylə, qoy mən bilim, nədir istəyin,
De, niyə tez gəlib, tez də gedirsən?
Nə üçün zalımdır sənin ürəyin?
Sən mənə böyük bir sitəm edirsən.

Yatıram yuxumda görürəm səni,
Olur ki, dərdindən yata bilmirəm.
Hər zaman mənimlə olursan, yəni
Bəzən də xəyalən oluruq bahəm.

Xəyalda, yuxuda görüşürük biz,
Cismən olmayırsan ancaq yanımda.
Dərdimi bilsəydi, coşardı dəniz,
Məni tək qoymazdı çətin anımda.

Bəsdir yuxularda görüşdük daha!
Gərəkdir görüşək sənlə həyatda.
Ülvinin ümidi qalır Allaha,
Yəqin, görüşərik toyda, büsatda.





## OD, SU, VİCDAN

Od, su, vicdan birgə çıxdılar yola,
Nə sağa baxdılar, nə də ki sola.
Söhbət edə-edə xeyli getdilər,
Çətin olan yolu yarı etdilər.
Su verdi vicdanla oda bir sual:
Deyin görək, sizlərdə necədir hal?
Dostlar gizlətməyin, eyləyin aşkar,
Bu yolu getməyə taqətiniz var?
İxtiyarsız verdi od suya cavab:
Bu yola çıxmışıq, etməliyik tab.
Yolların olsa da kəsəyi, daşı,
Biz də bu yollarda deyilik naşı.
Gəlin yolumuza eyləyək davam,
Hava qaralacaq, düşəcək axşam.
Hələ biz gecə də gedəcəyik yol.
Od suya söyləyir:
"Su, dözümlü ol".
Vicdan da dillənir asta səs ilə:
Gəlin gedək yolu biz həvəs ilə.
Daha uzatmayaq sözü, söhbəti,
İtirməyək olan xətir-hörməti.
Dostlar gedib qayalığa çatdılar,
Əsməyə başladı isti giləvar.
Su sakit dayanıb baxdı havaya,
Sanki başlayacaq indi davaya.
Su yenə bir sual eylədi belə:
Dostlar, siz söyləyin bir görək hələ,

Əgər biz itirsək cığırı, izi
Necə tapacağıq bir-birimizi?
Od bir az düşünüb dilləndi yenə,
Üzün tutdu suya:
Qulaq as mənə,
Nə qüvvə lazımdır, nə də ki hünər,
Məni tapmaq çətin deyil o qədər.
Yaşıllıq olmayan səhralıq görsən,
Ağılla fikirləş, bunu anla sən.
Bil ki, həmin yerdə, dostum, mən varam,
Hər kəsə bəlliyəm, açıq-aşkaram.
Od suya:
Danışırsan qəliz-qəliz,
Sən itsən, bəs səni necə tapaq biz?
Su susub bir qədər sakit dayandı,
Sonra elə bil ki birdən oyandı.
Mən itsəm, məni də tapmaq asandır,
Düşünməyin bu sözlərim yalandır.
Harada görünsə yaşıllıq, çəmən,
Bilin ki, o yerdə, demək, varam mən.
Su üzünü yenə tutdu vicdana:
Məəttəl qalmışam, a vicdan, sana,
Nə üçün susursan sən, danışmırsan?
De, niyə bizlərə heç qarışmırsan?
Vicdan cavab verdi suya astadan:
Ay su, danışmağa sən versən imkan,
Mən də eyləyərəm sizinlə söhbət.
İndi mən danışım, siz edin diqqət.
Siz itsəz, sizdə var bir nişan, bir iz,





Mən itsəm, vəziyyət olacaq qəliz.
Çün yoxdur nişanım, nə də ki izim,
Onunçün sizlərə belədir sözüm.
Bilin ki, mən itsəm, tapılmayacam,
Siz məni gəzməyin səhər, nə axşam.
Çalışın itməyim, sizinlə olum,
Qoymayın sizlərdən mən ayrı qalım.
Vicdan bunu deyib, susub dayandı,
Vicdanın itməyi bizə ziyandır.
Od nərə çəkərək söylədi bunu,
Hələ bitməmişdir bu yolun sonu.
Onlar yollarına davam etdilər,
Yenə də birlikdə çıxıb getdilər.
Mən də öz fikrimi bildirim gərək,
Bu fikrə heç bir kəs eyləməsin şək.
Çalışaq, vicdana düşməsin ləkə,
Bizləri boğmasın qorxu, səksəkə.
Əgər hər bir kəsin olsa vicdanı,
Rahat dövr edərik onda dövranı.
Vicdan düz söyləyir, vicdan ki itdi,
Vicdansız yaşamaq bil ki, çətindi.
Kimin ki itirsə əgər vicdanı,
Daha da çox olur onun nöqsanı.
Ülvi Aydın söylədi öz sözlərin,
Hər bir kəs bilməli əyri, düzlərin.
Bu sözlər qoy olsun kiçik nəsihət,
İnsanlar götürsün özünə ibrət.

## QAYITDIN

Bəlkə də, o zaman heç düşünməyib,
Xaricə getməyi üstün tutmuşdun.
Bir vaxt olacaqdı, qocalacaqdın,
Yəqin ki, bunu sən lap unutmuşdun.

Gedəndə demişdin qayıdacağam,
Vətəndən uzaqda qalmaq çətindir.
Bəzən də olur ki, qayıtmır adam,
Düzdür, sən qayıtdın, amma ki çox gec.

İşləmək adıyla getdin vətəndən,
Bir illik gedişin on beş il oldu.
Uşaqkən deyirdin, həkim olacam,
Arzular ürəkdə saraldı-soldu.

Bir zaman gəlmədi səsin-sorağın,
Bizləri axtarıb heç aramadın.
Bəlkə də, yuxuda olduq qonağın,
Ancaq halımızı sən soramadın.

Ömrünün ən gözəl şirin çağında,
Vətəndən qıraqda yaşadın, qardaş.
Yaxşıdır yaşamaq vətən dağında,
Çünki özünündür həmin o dağ-daş.





Ömrün gənc çağında getdin xaricə,
Gedişin çoxuna olmadı bəlli.
Çəkdiyin əzablar səninki oldu,
Gəlməyin bizlərə oldu təsəlli.

On beş il az deyil, uzun zamandır,
Nəhayət, qayıtdın öz vətəninə.
Həsrətlə yaşamaq qəlbə ziyandır,
Bu böyük həsrətə dözməyir sinə.

Azəri oğlusan, afərin sənə,
Yaddan çıxarmadın ana dilini.
Yenidən qayıtdın doğma vətənə,
Unudub atmadın oba, elini.

## GEDƏN DEYİLƏM

İnan, sənsizlikdən deyib-gülmürdüm,
Sirrimi heç kəslə yarı bölmürdüm,
Gəlmək istəyirdim, gələ bilmirdim,
Mənə "get" söyləmə, gedən deyiləm.

Yuxusuz gecələr oldu yoldaşım,
Yatmadım, ağradı bil gözüm, qaşım,
Nə qədər bəlalar çəkdi bu başım,
Mənə "get" söyləmə, gedən deyiləm.

Düşünmədim heç bir dərdi, azarı,
Unutdum soyuğu, boranı, qarı,
Arzu eyləyirdim, kaş görəm yarı,
Mənə "get" söyləmə, gedən deyiləm.

Razıyam qalmağa qarda, yağışda,
Xəbərsiz gəlmişəm, məni bağışla.
Səninlə istidir mənimçün qış da,
Mənə "get" söyləmə, gedən deyiləm.

Xəbərdar etməyə tapmadım imkan,
Çünki bu gəlişim olmadı asan.
Səni sevdiyimçün gəlmişəm, inan,
Mənə "get" söyləmə, gedən deyiləm.





Ürək sənsizliyə dözdü birtəhər,
Hər axşam rəsminə salırdım nəzər,
Razıyam içməyə əlindən zəhər,
Mənə "get" söyləmə, gedən deyiləm.

Yanına gələndə gəldim sevincək,
Getməyi istəmir bu sevən ürək.
Sən də ol ürəklə indi müştərək,
Mənə "get" söyləmə, gedən deyiləm.

İsrarla "get" desən gözəlim əgər,
Ayrılıb gedəcək Ülvi birtəhər.
Sonuncu olacaq amma bu səfər,
Mənə "get" söyləmə, gedən deyiləm.

## KEÇMİŞİNƏ BAX

Bu gün vardır sənin varın, dövlətin,
Səni tanıtsa da şanın, şöhrətin,
Çalış ki, itməsin olan hörmətin,
Bu günlə yaşama, keçmişinə bax!

Uçuq komalarda yatırdın bir vaxt,
Sən indi gəlibən görmüsən paytaxt,
Qursan da özünə qızıldan bir taxt,
Bu günlə yaşama, keçmişinə bax!

Gün vardı yeməyə tapmırdın çörək,
Yalvarıb umurdun hər kəsdən kömək,
Yalandan üzünə vuruban bəzək,
Bu günlə yaşama, keçmişinə bax!

Gizlətmək mümkünsüz yağışı, seli,
Üzdə görünsən də ipəyin teli,
Aldatmaq olmayır obanı, eli,
Bu günlə yaşama, keçmişinə bax!

Göstərmə özünü üzdə mədəni,
Onsuz da, tanıyan tanıyır səni.
Necəsən, elə ol, deyirəm yəni,
Bu günlə yaşama, keçmişinə bax!





Tanrı bilib vermir dəvəyə qanad,
Vardırsa əlində beş-on min manat,
O demək deyil ki, keçmişini at,
Bu günlə yaşama, keçmişinə bax!

Ancaq imkanlıyla oturub-durma,
Özündən acizi, zəifi vurma,
Olmayan bir şeyi qurub uydurma,
Bu günlə yaşama, keçmişinə bax!

## ZİYANI YOXDUR

Sən yersiz eyləmə heç bir tələbi,
Hər sözdən incimə yoxsa səbəbi.
İtirmə hörməti, ərkan-ədəbi,
Söndürmə əlinlə öz çırağını.

Asan qurulmayır heç bir ailə,
Uyma şirin sözə, nə şirin dilə,
Yıxma öz evini sən bilə-bilə,
Çalış ləkələmə ağ varağını.

İnsan çılğınlaşıb əsəblə dolur,
Əsəb tez yaranır, tezcə də solur,
Hər evdə danışıq, söz-söhbət olur,
O anda kar eylə bir qulağını.

Demirəm, yetirmə özünə diqqət,
Əksinə, daha çox ver əhəmiyyət.
Gözəllik hər zaman lazımdır, əlbət,
Vaxtında telinə çək darağını.

Hər sözü uzatma, eylə müxtəsər,
Çox uzun danışmaq verməyir səmər,
Şirin dil heç kəsə olmayıb zərər,
Şirin, ləziz eylə söz bulağını.





Yoldaşın yanına dönəndə işdən,
Demə ki, bu gün çox yorulmuşam mən.
Əksinə, çox şirin söhbət eylə sən,
Turşutma üzünü, gül dodağını.

Yoldaşın can desə, sən də söylə can,
Yoldaşa can demək deyil ki nöqsan.
Ləkəsiz oldusa əgər ki vicdan,
Salma ürəyinə el qınağını.

Həyat yoldaşınla sən ol həmfikir,
Nəyisə "sirr saxla" desə, saxla sirr.
Bil, gəldi-gedərdi ləli-cavahir,
Bacar qoru, saxla öz ocağını.

Şeiri oxusan, yoxdur ziyanı,
Özün seçəcəksən yaxşı-yamanı.
Çətindir həyatın hər imtahanı,
Gözə al həyatın hər sınağını.

## SEVGİDƏN DOĞUR

Səninlə gözəldir mənə bu aləm,
Əl-ələ tuturuq, olur möhtəşəm.
Göz-gözə baxırıq, biz baxışırıq,
Sənlə şirin-şirin hey danışırıq.

Bəzən danışırsan sən aram-aram,
Şirin sözlərindən mən xoşlanıram.
Bəzən də yamanca çılğınlaşırsan,
Uca zirvələri sözlə aşırsan.

Olur ki, inciyib məndən küsürsən,
Halını soruram, dodaq büzürsən.
Deyirəm, küsmüsən, yox söyləyirsən,
Bunu dilinlə yox, başla deyirsən.

Səni dindirirəm, vermirsən cavab,
Cavab eşitməyib çəkirəm əzab.
Səsin gəlməyəndə olmuram rahat,
Ancaq bu gərginlik çəkmir bir saat.

Bizi barışdırır incə barmaqlar,
Sən xəlvət gəlirsən, onlarsa aşkar.
Əlinlə saçımı tumarlayırsan,
Özün dayanmasan, demirəm dayan.





Yəqin, biz küsürük, sevinir saçlar,
Küsülü olmasaq, çəkilmir tumar.
Saçlarım dillənə bilsəydi əgər,
Deyərdi: nə olar küsün hər səhər.

Dünyada mənimçün ən gözəl sənsən,
Günəş də utanır gözəlliyindən.
Üzünə baxdıqca alıram ləzzət,
Qoy deyim, sən də bil, budur həqiqət.

Güzgü qarşısında biz dayananda,
Gözlərim qamaşır həmin o anda.
Güzgüdə şəkilcə oluruq bahəm,
Baxıram, baxdıqca fərəhlənirəm.

Şirinlik, gözəllik sevgidən doğur,
Sevgi olan yerdə nifrəti boğur.
Günü-gündən artır sevgi-məhəbbət,
İsinir hisslərim, çoxalır şiddət.

Həyatın mənası səni bilirəm,
Gülürsən, səninlə deyib-gülürəm.
Biz vaxtsız görməyək acı, qəm, kədər,
Sənlə ömür sürək, xoşbəxt, bəxtəvər.

## BƏYƏNMƏDİYİN

Sevirəm deyəndə sən razılaşdın,
Bildin ki, kasıbam, mənlə dalaşdın.
Mənə, get, söylədin, həddini aşdın,
Mən həmin insanam, bəyənmədiyin.

Sənin sevməmişdim var-dövlətini,
Biləsən, sevmişdim mən qeyrətini,
İstədim, qazanam məhəbbətini,
Mən həmin insanam, bəyənmədiyin.

Sən mənə vermədin saf məhəbbəti,
Əksinə, get dedin, acıqlı, qəti.
Get deyib ağladın, bəlkə, xəlvəti,
Mən həmin insanam, bəyənmədiyin.

O zaman işvəylə, nazla gəzirdin,
Sən məni görəndə gülümsəyirdin,
Bəlkə, ürəyində yazıq deyirdin,
Mən həmin insanam, bəyənmədiyin.

Yox idi nə varım, nə də dövlətim,
Dillərdə gəzmirdi şanım-şöhrətim,
Bircə ağlım idi olan sərvətim,
Mən həmin insanam, bəyənmədiyin.





Düşünmə, nökərdən heç vaxt olmaz xan,
Buna qərar verir ancaq Yaradan,
Kasıb, ya imkanlı, insanıq, insan,
Mən həmin insanam, bəyənmədiyin.

Kimlər ki taxtdaydı düşübdür taxtdan,
Kimi də ev alıb indi paytaxtdan,
Nə qədər keçsə də əvvəlki vaxtdan,
Mən həmin insanam, bəyənmədiyin.

İndi vardır mənim şöhrətim, şanım,
Pis deyil hörmətim, varım, imkanım,
Ancaq itməyibdir mənim vicdanım,
Mən həmin insanam, bəyənmədiyin.

Qəlbimə olmadın o zaman həmdəm,
Sən mənə gülürdün, mənsə gülmürəm.
Razıyam olmağa səninlə bahəm,
Mən həmin insanam, bəyənmədiyin.

## SEVGİ AZARI

Dostuma açdım telefon,
Saat elə olardı on.
Dedim, sorum bir halını,
Qoy öyrənim əhvalını.

Cavab verdi asta səslə,
Xışıltılı bir nəfəslə.
Dost, nə olub söyləsənə?
Yoxsa azar gəlib sənə?

Dedi halım fənalaşıb,
Sanki mənim ağlım çaşıb.
Söylə görək, dərdin nədir?
Mənim dərdim qoy qalsın sirr.

Dost da dostdan sirrin saxlar?
Dərdini de, eylə aşkar.
Axı dostuq biz səninlə,
Yaxşı, dayan, deyim dinlə.

Xəstəliyim çox çətindir,
Bax, indi iş qismətindir.
Getmisənmi bir həkimə?
Yoxsa demədin heç kimə?





Neyləyirəm həkimi mən,
Çarəsini çün bilirəm.
A, nə yaxşı, əlacı var?
Şükür sənə Pərvərdigar.

Dərmanım var bir nəfərdə,
O yaşayır bu şəhərdə.
Göndərmişəm ona xəbər,
Amma hələ yoxdur səmər.

Nə dərmandır, nədir adı?
Soraqlayım qohum-yadı.
Fikirləşmək yersiz, əbəs,
Bəlkə, tapar onu bir kəs.

Sən axtarma çəkmə, zəhmət,
Olacaqdır, olsa qismət.
Yoxdur onu edən əvəz,
Soraqlamaq olar əbəs.

Məhəbbətdir böyük bəla,
Sevdiyin yar ona şəfa.
Gözləməyə etmirəm tab
Hər dəqiqə artır əzab.

Dayan-dayan, nə məhəbbət?
Bu doğrudur, bir həqiqət.
Demək sənin sevdiyin var,
Etməmisən bizə aşkar.

Kimlərdəndir sevdiyin kəs?
Susma, söylə, bir az tələs.
Xəstə deyir öz-özünə,
Mən də inandım sözünə.

Qız işləyir müəllimə,
Bənzəməyir o heç kimə,
Odur yatan ürəyimə,
Kaş ki yetəm diləyimə.

Tutmusan sevgi azarı,
Gözləyirsən demək yarı.
Xoşbəxt etsin sizi Allah,
Xoş açılsın hər bir sabah.

Tez yetəsən öz yarına,
O sevdiyin nigarına.
Allah qoysa, sağalarsan,
Muradına tez çatarsan.





Yaxşı, dostum, artıq gecdir,
Danışırıq, gecə keçir.
Şirin yuxu, nurlu sabah,
Qismət etsin sənə Allah.

Bir həftə ötdü beləcə,
Zəng etdim yenə bir gecə.
Dostum, söylə, nə xəbər var,
Qurtarıbmı ağrı, azar?

Hələ bitməyib ağrılar,
Bitməyinə ümidim var.
Ata-anası razıdır,
Naz nənəsinin nazıdır.

Nənəsi vermək istəmir,
Yoxsa hələ naz eyləyir?
Açıq-aşkar bir söz demir,
Nənə ancaq nəm-nüm edir.

Demək, onda var ürəyi,
Özü işlədir kələyi.
Yoxsa nənə heç sevməyib,
Bir kəsə könül verməyib?

Bu hal olub bir ənənə,
Onunçün naz edir nənə.
Əsas qızdır, qız nə deyir?
Qızın özü "hə" söyləyir.

Yaxşı, sağ ol, get bir az yat,
Daha olma sən narahat.
Zəng edəcəm özüm sənə,
Şad xəbər deyərsən mənə.

Ötdü keçdi bir-iki gün,
Zəng eylədim xəbər üçün.
Nə var, nə yox, necədir hal,
Yüksəlibmi səndə əhval?

Hə yüksəlib, sağalmışam,
İstədiyimi almışam.
Razılaşdıq biz, nəhayət,
Getdi azar, bitdi həsrət.

Təbrik eyləyirəm səni,
Sevindirdin bu gün məni.
Tanrı sizi xoşbəxt etsin,
Kədər, acı uzaq getsin.





## TANRININ PAYI

Mən dəli olmuşam, yoxsa havalı
Gecə də gözümə günəş görünür.
Bəlkə də, yuxluyam, ayılmamışam,
Zülmət gözlərimdə nura bürünür.

Yox, dəli deyiləm, buna çox şükür,
Gerçək olan budur, bax budur həyat.
Bir gözəl zülməti nuruyla sökür.
Məəttəl qalmışam bu gözəlliyə.

İlahi, nədir bu, bu nə gözəllik,
İnsan da olarmış bu qədər gözəl.
Gözəllər görmüşdüm mən bu dünyada,
Beləsin görmədim heç bundan əzəl.

Ay da görünməyir utandığından,
Yəqin, görünməyə etməyir cürət.
Gözələ hər payı verib Yaradan,
Baxdıqca cəlb edir özünə diqqət.

İki göz yetməyir baxmağa qıza,
Gözlərim qamaşır yumulur sanki.
Bundan çox asandır baxmaq ulduza,
Ulduz da görünmür amma ay kimi.

Gözəldə təbiət edilib təsvir,
Əlləri ağappaq qardır elə bil.
Vallah bu gözəllik qəribə sirrdir,
Baxdıqca gözələ oluram mail.

Yazın çalarları vardı üzündə,
Dodaqlar laləték olub qırmızı.
Sanki bahar gəlib, mən elə bildim.
Heyrətə qərq oldum görüb bu qızı.

İstilik, şirinlik vardır üzündə,
Ürəyi isidir soyuq bir gündə.
Yaşayıb yaşatmaq gördüm gözündə,
Yaratmaq həvəsi vardı içində.

Bu gözəl Tanrının payıdır mənə,
Ülviyçün yaranıb, Ülviyçün gəlib.
Nə qədər baxsam da, doymuram yenə,
Gözlər bu gözələ baxıb dincəlib.





## FƏRQLİDİR

Bir evdə böyüyür hər iki övlad,
Biri çox qəmgindir, digəriysə şad.
Biri savadlıdır, biri bisavad,
Qardaş da qardaşdan, əlbət, fərqlidir.

Günəş çıxır, nura qərq olur aləm,
Yağışsa yağanda hər yan olur nəm.
Adam var, yağışı sanır möhtəşəm,
Günəşlə yağışa rəğbət fərqlidir.

Cəhənnəmin yolu açıq, genişdir,
Cənnətin yolları yoxuş, enişdir.
Cənnətə yol tapmaq çox çətin işdir,
Bəli, cəhənnəmlə cənnət fərqlidir.

İnsana gərəkdir hər vaxt nəqliyyat,
Beş saatlıq yolu, edir bir saat.
Avtomobil olsun, ya da kəhər at,
Ancaq onlarda da sürət fərqlidir.

İnsan var, aldanır şirin bir sözə,
İnsan var, gecəsin qatır gündüzə,
İnsan var, söyləyir sözünü üzə,
İnsanlarda mənlik, cürət fərqlidir.

Nəzər sal ulduza, günəşə, aya,
Bərabər olmayır onlarda ziya.
Hərədə bir cürdür ar, abır, həya,
İnsanlarda abır, ismət fərqlidir.

İnanma o kəsin heç vaxt sözünə,
Səni görcək gülür daim üzünə.
Gedib qeybət edir səndən yüzünə,
Düşüncə müxtəlif, xislət fərqlidir.

Qaranlıq insanın canın alandı,
Düşünmə işıqla, sabah yalandı.
Ocaq ki quruldu, tonqal qalandı,
Bax odur, işıqla, zülmət fərqlidir.





## NAZ SAT

İndidən deyirəm, yaz yaddaşına,
Güvənmə gözünə, nə də qaşına,
Yalan deyib bəla açma başına,
Mənə yalan satma, ondansa naz sat.

İstərsə cavan ol, istərsə qoca,
Dediyim sözləri düşünmə bica,
Gözümdə ucasan, bacar, qal uca,
Yalandan uzaq ol, eylə ehtiyat.

Əgər ki bir evdə yeriyir yalan,
Evin bünövrəsi titrəyir o an,
Gərək dağılmağa müəyyən zaman,
Bu, bir həqiqətdir, sanma zarafat.

Süni gülüşlərin deyiləm acı,
Yalandan gülübən, baxma qıyqacı,
Sözün düzün söylə, olsa da acı,
Qoy olsun ürəyin, vicdanın rahat.

Üç dəfə, beş dəfə danışsan yalan,
Vərdiş olacaqdır artıq hər zaman,
Səmər verməyəcək, verəcək ziyan,
Sən də olacaqsan yalana fanat.

Özün qazanmısan saf məhəbbəti,
Elə et, qazanma kini, nifrəti.
Mənfini az eylə, çoxalt müsbəti,
İstəyim çoxalsın, artsın qatbaqat.





## ƏLLƏRİ ƏLLƏRİMDƏDİR

Gözəlim, gözlərin cəsarətlidir,
Səsin çox şirindir, məlahətlidir,
Əllərin istidir, hərarətlidir,
Əlimi buraxıb getmə, sən Allah.

Dinmək istəyirəm, söz tutmur dilim,
Sənin əllərinlə isinir əlim,
Ay mənim qəlbimi alan sevgilim,
Əlimi buraxıb getmə, sən Allah.

Mən səni sanırdım nazsız, ədasız,
Dilim də gəlməyir deyim vəfasız,
Şirin həyatımı etmə mənasız,
Əlimi buraxıb getmə, sən Allah.

Sevincli könlümü eyləmə viran,
Qoy elə beləcə qalsın firavan.
Getsən, püskürəcək atəşli vulkan,
Əlimi buraxıb getmə, sən Allah.

Getmə söyləsəm də, getdi nigarım,
Məni yarsız qoydu vəfasız yarım,
Soyuq qışa döndü isti baharım,
Yarım əllərimi buraxıb getdi.

Dünya qaranlıqdır indi gözümdə,
Yarımla bir getdi səbir, dözüm də,
Özümü tapmıram artıq özümdə,
Yarım əllərimi buraxıb getdi.

Görən, bu, yuxudur, yoxsa ki necə
Bəlkə də, yuxudur, ancaq sadəcə,
Gözümdə günəşə bürünüb gecə,
Yarımın əlləri əllərimdədir.

Sən demə, olanlar həqiqətiymiş,
Yarımdır göstərən mənə nəvaziş,
İlahi, nə yaxşı, qayıdıb keçmiş,
Yarımın əlləri əllərimdədir.

Məni tənha qoyub getdin yanımdan,
Qəlbimi qopardın şirin canımdan,
Ayrı düşdüm sən tək gözəl xanımdan,
Niyə əllərimi buraxıb getdin?

Mənə bilet aldın qəm qatarına,
Heyranam dərdinin etibarına,
Dərdin vəfalıymış səndən yarına,
Niyə əllərimi buraxıb getdin?





Bir qədər qəlbimi üzdü intizar,
Dərdimi heç kəsə etmədim aşkar,
Bircə söylədim ki, ey sevgili yar,
Niyə əllərimi buraxıb getdin?

Deyirsən, etmisən məni imtahan,
Sevməyim doğrumu, yoxsa ki yalan.
Səndən qeyri yoxdur sevdiyim canan,
Daha əllərimi buraxıb getmə.

Sənin həsrətindən qəlbim üzüldü,
Yollara baxmaqdan gözlər süzüldü,
Qamətim əyildi, ruhum əzildi,
Daha əllərimi buraxıb getmə.

Biz düçar olmayaq naləyə, aha,
Olanlar olubdur, keçibdir daha,
Qayıtdın yanıma, şükür Allaha,
Yenə sıcaq əllər əllərimdədir.

## DÜŞÜNÜB DANIŞ

Necə də düz olsa düşüncə, əməl,
Söz var ki, insana gətirir xələl.
Sözünü fikirləş deməzdən əvvəl,
Danışıb düşünmə, düşünüb danış.

Danışma bu günlə, bir bax dünənə,
Kömək eyləyənlər olubdur sənə,
Boş-boş danışmağı etmə ənənə,
Danışıb düşünmə, düşünüb danış.

Köməyin dəyibmi bircə insana?
Səhvləri edirsən sən qana-qana,
Dilini öyrətmə şərə, yalana,
Danışıb düşünmə, düşünüb danış.

İrişib söz atma dosta-yoldaşa,
Deyilən sözlərin düşür yaddaşa,
Kənardan özünə eylə tamaşa,
Danışıb düşünmə, düşünüb danış.

Sən ağac deyilsən, çör-çöpsən hələ,
Çör-çöp də yanaraq çevrilir külə,
Kül də qalan deyil, yoldaşdır yelə,
Danışıb düşünmə, düşünüb danış.





Olma sinonimi pis fikirlərin,
Hər kəs bilməlidir özü öz yerin,
Sözün düzün söylə, çatsa hünərin,
Danışıb düşünmə, düşünüb danış.

Arabir seyr eylə çölü çəməni,
Paxıllıq hər zaman çaşdırır səni,
Hörməti-izzəti itirir yəni,
Danışıb düşünmə, düşünüb danış.

## PEŞMAN OLMUSAN

Ürəyin ağlayır, özün gülürsən,
Yalandan gülsən də, ruhən ölürsən,
Günah səninkidir, bunu bilirsən,
Mənə get söyləyib, peşman olmusan.

Görürəm tükənib gücün, taqətin,
Qalıb gözlərində saf məhəbbətin,
Ayrılıq səninçün çətindir, çətin,
Mənə get söyləyib, peşman olmusan.

Sanki əriyirsən qar tək anbaan,
Əgər utanmasan öz qürurundan
Yalvarıb deyərsən, getmə, bir dayan,
Mənə get söyləyib, peşman olmusan.

Bir yanda məhəbbət, bir yanda qürur,
Bir yanda hisslərin, bir yanda şüur,
Beynində dolaşır edir vurhavur,
Mənə get söyləyib, peşman olmusan.

Gözümdən çəkmirsən bir an gözünü,
Deyə bilməyirsən ürək sözünü,
İndi qınayırsan özün özünü,
Mənə get söyləyib, peşman olmusan.





Nurlu həyatını etdin qapqara,
Kiçik səhvin atdı səni odlara,
Özün öz qəlbinə vurmusan yara,
Mənə get söyləyib, peşman olmusan.
Sən özün-özünə düşman olmusan.

## BİRCƏ ONU İSTƏMİRƏM

Gözəl keçir ayım, ilim,
Acı, şirin olur dilim.
Bulağa gəlsə sevgilim,
İstərəm ki, bulaq olum.

Vurğunuyam incə belin,
Sevgilim darayır telin.
Yanağına qoysa əlin,
Qoy onda mən yanaq olum.

Bilsəm, yuxuma gələcək,
Sirrini yarı böləcək,
Mənimlə deyib-güləcək,
İstəmərəm oyaq olum.

Əllərim batsa da hisə,
Baxmayacam yaxşı-pisə.
Gözəlim gəlsə məclisə,
Gərək mən də qonaq olum.

Çəksə məni sınağına,
Baxmaram el qınağına.
Güzgü tutsa dodağına,
Kaş ki o an dodaq olum.





İstəmirəm yemək, ya çay,
İstəyirəm salım haray.
Məhəbbətdən paylansa pay,
Həmin paya ortaq olum.

Çiçəklənib gəlsə bahar,
Yarım yayda istəsə qar,
Əgər versə buna qərar,
Mən razıyam sazaq olum.

Gözəlimin yox qüsuru,
Amma nə xoş, var qüruru.
Qaranlıqda gəzsə nuru,
Gözlərinə çıraq olum.

Yarım olsun mənə həmdəm,
Gözəlləşsin, dünya, aləm.
Bircə onu istəmirəm,
Sevgilimdən uzaq olum.

## YALAN

Danışırsan yüz cür yalan,
Yalan olur sənlə hər an.
Yalan sənin yol yoldaşın,
Yəni olur can sirdaşın.

İşdə bir cür, evdə bir cür,
Yalanlarla ömrünü sür.
Danışırsan hər gün yalan,
Artıq vərdiş olub, inan.

Yalan var ki, evlər yıxır,
Yalan var ki, ürək sıxır.
Yalan da var, tökür qanlar,
Az olmayıb belə anlar.

Yalan deyib yoldaşına,
Daş salırsan öz başına.
Bir gün, beş gün keçir belə,
Yalan sənə qurur tələ.

Yarı yolda qoyur səni,
Xəyanət eyləyir yəni.
Qalırsan pis vəziyyətdə,
Sənsən çəkən əziyyət də.





Üz qızardır, utandırır,
Bəzən olur usandırır.
Ayaq tutur yeriməyir,
Sirdaş olub saxlamır sirr.

İtirir olan hörməti,
O öyrədir xəyanəti.
Həm etdirir, həm də edir,
Özü qalmır, çıxır gedir.

Onun ömrü qırx gün olur,
Tez yaranır, tez də solur.
Ləkə salır ürəklərə,
Aşmır dağlar, keçmir dərə.

## GÖYLƏR NİYƏ AĞLAYIR

Yenə göylər ağlayır,
Amma bilmirəm niyə.
Sanki coşur, çağlayır,
Hay-küyə bax, hay-küyə.

Səmanın göz yaşları
El-obaya çilənir.
Titrədir dağ-daşları,
Torpaq suya bələnir.

Səmanın dərdi nədir?
Niyə söyləmir bizə?
Bəlkə də, saxlayır sirr,
Vermir dərdin biruzə.

Əlim çatmır göylərin
Silim gözünün yaşın.
Ovutum dərdin-sərin,
Sığallayım mən başın.

Bizim də dərdimiz var,
Qədəri də az deyil.
Deyib edirik aşkar,
Bu dərdi paylaşır dil.





Göylərin yoxdur dili,
Dərdini deyə bilmir.
Özüylədir nisgili,
Onunçün üzü gülmür.

İnsanlar da göylərtək
Ağlayıban gülməsə,
Qubarlı qalar ürək,
Sirrin yarı bölməsə.

## GƏL MƏNİM ÖMRÜMƏ

Gözümdə saralıb yamyaşıl çəmən,
Gəl mənim ömrümə, qışı et bahar.
Şaxtadır, sazaqdır, üşüyürəm mən,
Gəl məni şaxtadan, sazaqdan qurtar.

Dərdim günü-gündən gəlir üst-üstə,
Gül kimi yığılır dəstəbədəstə.
Sənsizlik eyləyib qəlbimi xəstə,
Çılğın məhəbbətdən tutmuşam azar.

Həsrətin atıbdır məni odlara,
Nurlu sabahımı edib qapqara.
Gəl mənim ömrümə, dərdə ol çara,
Dərdin qucağından al məni apar.

Bir bax məhəbbətdə gücə, mənaya,
Gecələr yatmıram dalıb xülyaya.
Bircə o qalıb ki, düşüm səhraya,
Olum səhralarda Məcnuna oxşar.

Bilməzdim, sevgidən dərdə düşərəm,
Məhəbbət odunda yanıb bişərəm,
Yararam dağları, dəlib deşərəm,
Artıq mən olmuşam bu dərdə düçar.





Yoluna baxmaqdan qaralıb gözüm,
Məndə qalmayıbdır heç səbir, dözüm.
Daha bacarmıram özümlə özüm,
Üzür ürəyimi zalım intizar.

Sevgim nə ötəri, nə də bir həvəs,
Sənə vurulmağım deyildir əbəs.
Olmayıb qəlbimdə səndən özgə kəs,
Ol mənim həmdəmim, ey nazlı nigar.

Gəl mənim ömrümə, qəmim yox olsun,
Ülvi fərəhlənsin, sevinc çox olsun.
Mənim yanımda ol, gözüm tox olsun,
Sənlə gerçəkləşsin ən xoş arzular.

## SEVƏN GÖZLƏR

Elə bil gözlərim nəsə axtarır,
Hər yanı dolaşır, edir səyahət.
Sən demə, vurulub gözəl bir qıza,
Gah aşkar izləyir, gah da ki xəlvət.

Gündüz qıza baxır, gecə göylərə,
Gözlərin vaxtı yox dincəlmək üçün.
Başqa gözəlləri görür ötəri,
Tək bircə o qıza baxır büsbütün.

Gözlərim yorulmur qıza baxmaqdan,
Çün yoxdur gözəlin heç bir qüsuru.
Yalnız şölə saçır siması hər dəm,
Gözləri cəlb edir üzünün nuru.

Yəqin, bu qız içib gözəllik suyu,
Gözəllik hopubdur gül simasına.
Günəş də payını əsirgəməyib,
Bəxşiş göndəribdir nurundan ona.

Gözlər işıq görər, gecə də olsa,
Amma ki o gözəl görünsə o dəm,
Sanki bir məlhəmdir qız gözlərimə,
Mənə gərək deyil ayrı bir məlhəm.





Nə heç bir təbiət, nə də ki çiçək,
Əvəz edə bilməz mənim gülümü.
Zərrəcə usanmır baxmaqdan gözlər,
Gözəl eyləsə də gözlərə zülmü.

Mən yalnız o halda çəkirəm əzab,
O gözəl çöhrəni görməyən zaman.
Ürəyim sıxılır, pisləşir halım,
Tükənir taqətim, kəsilir aman.

Gözlər aşiq olub düşüb sevdaya,
Gözəli hər görcək çoxalır sevda.
Ağlıma gəlməzdi vurular gözlər,
Amma bu gerçəkdir, deyilmiş röya.

Ülvi, gözlərinə qoyma qadağa,
Qoy baxsın o qıza istəyən qədər.
Gözələ baxmağın ziyanı yoxdur,
Gəlməz gözlərinə gözəldən zərər.

## ÖZÜN İTİRDİN

Soyuq divarlara oluban yoldaş,
Oturub tək-tənha sən ağlayırsan.
Mən səni atmazdım, özün get dedin,
İndisə daşları qucaqlayırsan.

Acılıq heç kəsə verməyib səmər,
Sənin də acı söz oldu düşmənin.
Özündən razılıq ondan da betər,
O da gəlib oldu qənimin sənin.

Bilirəm, sən indi peşman olmusan,
Gözünün yaşından yanaq islanır.
Sifətin dözməyir göz yaşlarına,
Suyun istisindən alışır, yanır.

Daha ağlamağın əbəsdir sənin,
Ağlayıb axıtma gözünün yaşın.
Gözünün yaşını silən deyiləm,
Çalış ki, itməsin olan yaddaşın.

İstək səninkidir, günah da sənin,
Çünki bu günahı etmisən özün.
Heç kəsdə axtarma, arama nöqsan,
Səni tənha qoydu bircə "get" sözün.





Məndən xatirələr qalıbdır sənə,
Saxla ürəyində, onları qoru.
Həmin xatirələr olsun sirdaşın,
Sirrini onlarla bölərsən barı.

Özün öz əlinlə itirdin məni,
Çətin qazanmışdın, asan itirdin.
Get yaşa özünçün öz həyatını,
Kədərin on idi, indi olub min.

## HƏYATDI DA

Gülən də var, ağlayan da,
Üzə qapı bağlayan da,
Dağlanan da, dağlayan da,
Həyatdı da, yaşayırıq.

Arzulara çatan da var,
Palçıqlıqda batan da var,
Yuxularda yatan da var,
Həyatdı da, yaşayırıq.

İnsanlar var, bir neçə cür,
Dalda söyür, üzə gülür,
Yalanlarla sürür ömür,
Həyatdı da, yaşayırıq.

Qadın olsun, ya da kişi,
Salam verir düşsə işi,
Eyləmişik bu vərdişi,
Həyatdı da, yaşayırıq.

Yay da gözəl, yaz da gözəl,
Payız gəldi olur xəzəl,
Deyirlər ki, qışdır əzəl,
Həyatdı da, yaşayırıq.





İnsan var ki, dili şirin,
Savadlıdır, elmi dərin.
İnsan da var, bilmir yerin,
Həyatdı da, yaşayırıq.

Haqsız da var, haqlı da var,
Haqlı haqqı edir aşkar,
Şükür sənə, Pərvərdigar,
Həyatdı da, yaşayırıq.

İnsan da var, güdür xeyir,
Səhər yemir, axşam yeyir,
Öz-özünə varlı deyir,
Həyatdı da, yaşayırıq.

Böyük-kiçik olur günah,
Yalan deyil axşam-sabah,
Kömək olsun bizə Allah,
Həyatdı da, yaşayırıq.

Ümidləri itirməyək,
Ümidlərdi bizə gərək.
Ülvi, dilə yaxşı dilək,
Həyatdı da, yaşayırıq.

## GƏL DE

Qanad açıb gələrdim,
Əgər mənə gəl desən.
Qəmli olsam, gülərdim,
Əgər mənə gül desən.

Gözlərinə baxardım,
Sən olsaydın yanımda.
Səni görsəm gözəlim,
Ağrı qalmaz canımda.

İsidərdi qəlbimi,
Sənin isti nəfəsin.
Eşidərdim səsini,
Vurğunuyam o səsin.

Toxunardı əllərim
Sənin isti əlinə.
Sığal çəkər barmaqlar
Siyah olan telinə.

Şirin dilin qonağı
Kaş ki özüm olaydım.
Gülüm, sənin yanında
Həmişəlik qalaydım.





Bircə dəfə görmüşəm
Gözəl olan simanı.
Mən unuda bilmirəm
Ancaq hələ o anı.

İstəyirəm bunları,
Bunlar mənim istəyim.
Sənlə olmaq olubdur
Hər an arzu-diləyim.

Niyə belə qısqancsan?
Qısqanırsan özünü.
İcazə ver, qoy görüm
Sənin gülən üzünü.

Mənə gəl de, gözəlim,
Gəlim, olaq bərabər.
Ülvi səni istəyir,
Ötəri yox, sərasər.

## DEDİM-DEDİ

***Dedim:*** **Aşiqi olmuşam səntək dilbərin,**
***Dedi:*** **Bəs sən görmədinmi qeyri-digərin?**

***Dedim:*** **Baxmadım, baxsam da yoxdur bənzərin**
***Dedi:*** **Məni sevirsənsə, vardır hünərin.**

***Dedim:*** **Mən Fərhad olmuşam, səndə ki Şirin.**
***Dedi:*** **De, varmı bu haqda roman, əsərin?**

***Dedim:*** **Yazıram, bilmirəm sayın, qədərin.**
***Dedi:*** **İtməsin heç zaman sözdə kəsərin.**

***Dedim:*** **Sən nə düşünürsən, nədir fikrin?**
***Dedi:*** **Sənin olacağam, olsun xəbərin.**

***Dedim:*** **İndi xoşbəxtiyəm mən bu bəşərin.**
***Dedi:*** **Artıq qəlbimdədir, bil sənin yerin.**





## DEMƏ Kİ, OLMAZ

Gəl çıxaq şəhərə sənlə bərabər,
Seyr edək şəhərin gözəlliklərin.
İndi çox gözəldir, dəyişib şəhər,
Etiraz edirsən, deyirsən, olmaz.

Deyirəm, izin ver görüm üzünü,
Əllərim toxunsun pambıq əllərə.
Sənsiz çox çətindir, deyim düzünü,
Yenə də israrla deyirsən, olmaz.

Mənə səsini də sən çox bilirsən,
Susub telefonda hey dayanırsan.
Sağ ol ki arabir asta gülürsən,
Yaxşı ki, gülürsən, demirsən, olmaz.

Nədən utanırsan, söylə, qoy bilim,
Hamıya bəllidir, biz nişanlıyıq.
Ay mənim utancaq olan sevgilim,
Demə ki, sevgilim demək də olmaz.

Xəyalən oluram sənlə çox zaman.
Bircə söyləmə ki, məni düşünmə.
Düşünmə söyləsən, edərsən nöqsan,
Səni düşünəcəm desən də, olmaz.

Elçi gələn zaman atamla anam
Deyəsən, bilmirdin "olmaz" sözünü.
Bundan çox məmnunam, inan, çox şadam,
Sən inad eyləyib demədin, olmaz.

Dildə söyləsəm də sənə, gözəlim,
Bunun qarşılığın ödəyəcəyəm.
Yox, amma bilirəm, qoymaz əməlim,
Onda da ürəyim deyəcək, olmaz.

Yəqin ki, çox aldım vaxtını sənin,
İndi sağollaşım gərək səninlə.
Sənlə sağollaşmaq çətindir, çətin,
Nə olar gözəlim, indi de, olmaz.

Sənə arzum budur, diləyim budur,
"Olmaz" sözü çıxsın sənin yadından.
Düzdür, "olmaz" demək deyildir qüsur,
Gözəlim, Ülviyə demə ki, olmaz.





## XƏYALIMDASAN

Nə qədər yaşayım mən xəyalınla?
İstərəm xəyallar gerçəyə dönsün.
Xəyalın başımdan çıxmır heç zaman,
Səninlə oluram, inan büsbütün.

Mənim gündüzlərim dönür zülmətə,
Yoxluğun əridir qəlbimi şamtək.
Ötəri sevmirəm, gözəlim, səni,
Mən səni sevirəm, həqiqi, gerçək.

Gözlərim hər zaman sorağındadır,
Bəzən də sanıram, sən yanımdasan.
Sən demə, özümü mən aldadıram,
Olan xəyalındır başımda mehman.

Gülüm, yorulsam da mən xəyallardan,
Sənin xəyalından amma bezmirəm.
Sənlə xəyalən də olmaq gözəldir,
Xəyalın özüntək olur möhtəşəm.

Xəyallar mənimçün bir təsəllidir,
Demirəm, xəyallar gəldi-gedərdi.
Mən səni sevirəm, sənə aşiqəm,
Bəzən düşünürəm xəyal hədərdi.

Bəzən də deyirəm, nə yaxşı ki var
Sənin xəyalların başımda mənim.
Əgər xəyalların heç olmasaydı,
Bəs necə olardı mənim aləmim?

Əvvəllər qərarı verirdim qəti,
İndiysə qoymusan məni biqərar.
Bilmirəm xəyalı pisləyim, yoxsa
Deyim ki, yaxşıdır olan xəyallar.

Yandır eşqimizin gəl çırağını,
Qoy sənin özünlə mən olum bahəm.
Sənin xəyalların xatirə qalsın,
Birlikdə söyləyək, "gözəldir aləm".





## SƏN DEYƏN DEYİLƏM

İlk öncə mən səni tanıyan zaman
Nə dedim, sən mənə dedin: "baş üstə".
Elə bil dərdimdən dəli olmuşdun,
Dərdim eyləmişdi lap səni xəstə.

Mənlə şirin-şirin danışanda sən,
Sanki dodaqlardan süzülürdü bal.
Bu bir hiylədirmi, yoxsa ki gerçək,
Mən özüm-özümə eylədim sual.

Məni yanıltmayıb düşüncələrim,
Gülüşlər saxtaymış, siman riyakar.
Artıq üzə çıxıb kələyin sənin,
Bütün ətrafına olubdur aşkar.

Yəqin, çox qurmusan belə oyunlar,
Nə qədər insanlar düşüb kəməndə.
Bu dəfə mənimçün qurmuşdun tələ,
Düşündün, tələyə düşəcəm mən də.

İlan zəhərlidir, hər kəsə bəlli
Sən də heç ilandan qalmırsan geri.
Bəzən də olur ki, ilanın özün
Bax elə öldürür ilan zəhəri.

Ünvanı seçməkdə sən səhv eylədin,
Düşündün, məni də aldadacaqsan.
Sən hardan biləydin, axı sən özün
Tonqallar içində odlanacaqsan.

Süni gülüşlərin, o şirin dilin
Bilirdim, ötəri, keçib gedəndi.
Mən sənlə heç zaman deyib-gülmürdüm.
Deyirdin gülmürsən axı, nədəndi?

Mənə bəlli idi, bunlar oyundu,
Onunçün səninlə deyib gülmürdüm.
Doğrudur, arabir edirdim söhbət,
Amma ki sirrimi yarı bölmürdüm.

Cəhd etdin salmağa məni tələyə,
Mən isə tələyə düşmədim ancaq.
Ağılsız deyiləm düşündüyün tək,
Olmaram heç kəsə, bil ki oyuncaq.

Sən deyən deyiləm, get tap tayını,
Hiylədən, kələkdən bacarıb əl çək.
Ömrünə yazırsan pis səhifələr,
Onlar olmayacaq heç sənə gərək.





## FƏRQLİ GETMİŞDİM

Nəhayət, görüşdüm cananım ilə,
Ancaq bu görüşə fərqli getmişdim.
Mən neçə müddətdi görüşmək üçün
Tanrıya üz tutub dua etmişdim.

Yarla görüşməyə silahlı getdim,
Çünki söz vermişdim bunu özümə.
Desəm də, silahı salacam işə
Sonadək durmadım sahib sözümə.

Neçə ay olmuşdum həsrətə yoldaş,
Gülüm eyləyirdi mənə işvə-naz.
Qəlbim üzülmüşdü eşq həsrətindən,
Yarıma nə desəm, deyirdi, olmaz.

Dedim işə salım söz silahımı,
Söyləyim, gözəlim, olma insafsız.
Çatmadı hünərim sanki o zaman,
Gözlərim önündə görünəndə qız.

Gözüm yayınmırdı bir an yarımdan,
Yarıma baxdıqca olurdum mail.
Yadımdan çıxmışdı deyəcəklərim,
Sevincdən tutulub lal olmuşdu dil.

Görüb cananımı şamtək əridim,
Gözəllik önündə mən oldum aciz.
Əvvəllər deyirdim vəfasız gözəl,
Vəfasız deməərəm yarıma hərgiz.

Əksinə söylədim, gülüm, gözəlsən,
Yenidən eylədim sevgimi izhar.
Daha da çoxaldı sevgi-məhəbbət,
Sanki düşüb eşqə, vuruldum təkrar.





## YOL AXTARIRAM

O qızı görmüşdüm bir neçə kərə,
Vurulub gözələ düşdüm dərd-sərə.
Bilmirəm, yollanım hansı bir yerə,
Mən qızı görməkçün yol axtarıram.

Kim kömək edəcək axı bizlərə?
Dağda yaşamıram, enim düzlərə,
Gözlərim həsrətdir gözəl gözlərə,
Mən qızı görməkçün yol axtarıram.

Rəsminə baxmaqdan doymayır gözüm,
Ona yetmir mənim söhbətim, sözüm,
Daha qalmayıbdır səbr, nə dözüm,
Mən qızı görməkçün yol axtarıram.

Sevdiyim o qızı görə biləydim,
Onunla danışıb deyib güləydim,
Sözümü, sirrimi yarı böləydim,
Mən qızı görməkçün yol axtarıram.

Getməyə razıyam kəsəkli yolla,
İlan sağla getsin, mən gedim solla,
Yollar dolu olsun ağacla-kolla,
Mən qızı görməkçün yol axtarıram.

Yol tapmaq olsa da nə qədər qəliz,
Keçməyə razıyam okean, dəniz.
Ülvi dönməyəcək bu yoldan hərgiz,
Mən qızı görməkçün yol axtarıram.

## YAZ QİSMƏTİMƏ

Görcək bu gözəli könlüm durulur,
Qızı görməyəndə gözlər yorulur,
Bu qıza ürəyim yüz yol vurulur,
Allah, bu gözəli yaz qismətimə!

Məhəbbət yolları olsa da çətin,
Olaram bu yolda dözümlü, mətin,
Kaş dadın dadaydım, mən səadətin,
Allah, bu gözəli yaz qismətimə!

Baxmaqdan doymayır gözüm-gözünə,
Sanki nur çiləyib Tanrı üzünə,
Mən heyran olmuşam şirin sözünə,
Allah, bu gözəli yaz qismətimə!

İndi istəmirəm varı, dövləti,
Nə də axtarmıram şanı, şöhrəti,
Bircə istəyirəm saf məhəbbəti,
Allah, bu gözəli yaz qismətimə!

Gözəlin dərdindən mən divanəyəm,
Nə qədər olsa da əziyyət, sitəm,
Ancaq gözlərimə qonmasın dərd-qəm,
Allah, bu gözəli yaz qismətimə!





Məhəbbət yolları olsa da qəliz,
Bu yoldan bir addım dönmərəm hərgiz,
Sevdiyim gözəllə kaş qovuşaq biz,
Allah, bu gözəli yaz qismətimə.

Daha itirmişəm həftə, ayımı,
Tanrı, eşit mənim bu harayımı,
Məndən əsirgəmə sevgi payımı,
Allah, bu gözəli yaz qismətimə!

## SEVGİDƏN DOYMA

Gülüm, sevənlərə eyləmə nifrət,
Məhəbbət acı ol, istə məhəbbət.
Sevib-sevilməyi sanma cinayət,
Həyatdan doysan da, sevgidən doyma.

Sanma məhəbbəti tufan-zəlzələ,
Sevginin dadını bilmirsən hələ.
Demə ki, eşqimə olmaram kölə,
Hər kəsin sözünə, gözəlim, uyma.

Gizli saxlamayıb edirəm aşkar,
Sənin dərdin məni eyləyib bimar.
Gərəkdir sevənlər olmasın qəddar,
Bircə cəllad olub dərimi soyma.

Çətindir sevgini sözlə qandırmaq,
Olmayır saxlamaq, nə də dondurmaq.
Sənə yaraşmayır ürək sındırmaq,
Tikanlı baxışla qəlbimi oyma.

Yox desən, taqətdən düşəcək dizim,
Nitqim quruyacaq, bitəcək sözüm.
Yoluna baxacaq hər iki gözüm,
Ülvinin gözünü yollarda qoyma.

Gülüm, sevənlərə eyləmə nifrət,
Məhəbbət acı ol, istə məhəbbət.
Sevib-sevilməyi sanma cinayət,
Həyatdan doysan da, sevgidən doyma.





## SEVGİ BAĞI

Qəlbimdə yenicə bir bağ salmışam,
Həmin o bağımın adı sevgidir.
Bağımın sakini olacaq insan,
Bağı salmağıma eylədi təsir.

Bağımın sakini şirin ləhcəli,
İşvəli, ədalı, nazlı bir canan.
O bağı salmağa peşman olmaram,
Sevdiyim mənimlə olsa hər zaman.

Yüz cürə gül olsa sevgi bağında,
Mənim öz gülümü eyləməz əvəz.
Gülümə bərabər qeyri-gül yoxdur,
Onu sevməmişəm axı mən əbəs.

Sevdiyim gözəlim sevgi bağımdan,
Kaş ki yarpaq yolub budaq qırmasın.
Bağı tapdalayıb etməsin viran,
Bu sevən qəlbimə yara vurmasın.

Bacarıb bu bağda yetirək ağac,
Səadət ağacı, bir eşq ağacı.
Vardır təmiz eşqə, saf məhəbbətə
Əsil sevənlərin çox ehtiyacı.

Bağın gözəlliyi təmiz sevgidir,
Bu bağın bəzəyi ülvi məhəbbət.
Kədər, qüssə, sitəm kaş ki tapmasın
Bu sevgi bağına gəlməyə fürsət.

Qərənfil bitməsin sevgi bağında,
Qızılgül, nərgizin sayı çox olsun.
Ayrılıq görməsin əsil sevənlər,
Vaxtsız ayrılıqlar itib yox olsun.

Uçmasın bayquşlar bağ üzərindən,
Pərdəsin sərməsin qara buludlar.
Günəş şəfəq saçsın sevgi bağına,
Bağım olsun hər an yaşıl çəmənzar.

Bağımın çəpərə yox ehtiyacı,
Qəlbimdə salmışam çünki bu bağı.
Mənim sevgilimdən özgə qeyrisi,
Bu sevgi bağının olmaz qonağı.

Bağdan əskilməsin sevgi-məhəbbət,
Solmasın Ülvinin bu sevgi bağı.
Yarımla yaşayaq xoşbəxt, bəxtəvər,
Birlikdə keçirək bu gözəl çağı.





## ÜRƏK DÖZMÜR

İnsafsız deməyə gəlməyir dilim,
Deyərdim işvəli, nazlı sevgilim.
Gəl mənim ömrümə, kədəri silim,
Ol mənim ömürlük, canım, cananım.

Sevginin önündə qalmışam aciz,
Mən səni sevirəm səndən xəbərsiz.
Sözümü deməyə tapmıram bir iz,
Hələ çatmır buna mənim imkanım.

Mənim yadımdasan hər saat, hər gün,
Mən səni xəbərsiz sevdiyim üçün,
İnsafsız deməyim deyildir mümkün,
Heç zaman yol verməz buna vicdanım.

Bilsən, sənsiz necə çəkirəm əzab,
Daha əzablara etməyirəm tab.
Eyləyə bilsəydim mən sənə xitab,
Deyərdim, sən Allah, gəl ol mehmanım.

Həsrətin bəxş edib həyatıma qəm,
Eşqin yaradıbdır gözlərimdə nəm.
Sənsiz yaşayıram dərd ilə bahəm,
İnan, yoxdur mənim xoş güzəranım.

Elə ki surətin gəlir eynimə,
Dözümüm dırmaşır o an çiynimə.
Xəyallar cəm olur yenə beynimə,
Qəhər boğur məni, qaralır qanım.

Yaman bərk azardır sevgi azarı,
İnsanın çevrilir qışa baharı.
Mənə gərək deyil loğman qərarı,
Loğmansız bilirəm, sənsən dərmanım.

Röyada oluram sənlə hər gecə,
Rəngarəng ötüşür gecəm eləcə.
Səninlə həyatda görüşüm necə?
Gerçəkdə olasan mənim həyanım.

Gözüm soraqlayır hər yerdə səni,
Həsrətin salıbdır saçıma dəni.
Sevgi azarından xilas et məni,
Sənlə olmağıma vardır gümanım.

Ülvi, kaş qalmasın sevgin cavabsız,
Ürək dözmür daha qalmağa yalqız.
Sənə qismət olsun sevdiyin o qız,
Bizə kömək olsun tək Yaradanım.





## BACAR

Bacar, ey ürəyim, döz bu həsrətə,
Nə qədər üzsə də bu həsrət səni.
Əfsus ki, saçlarım dözə bilmədi,
Həsrət saçlarıma yağdırdı dəni.

Bacar, ey ürəyim, sonadək döyüş,
Çalış olmayasan həsrətə təslim.
Həsrət hər nə qədər göstərsə də güc,
Həsrətə vermə yol, olmasın hakim.

Bilirəm, ey ürək, sənə çətindir,
Gözlər də dərdini sənə söyləyir.
Çiyinlər hər yükü daşısalar da,
Ağırlıq təsirin sənə eyləyir.

Həsrət gözlərimi yollarda qoyub,
Qəmə qərq eyləyib gülən çöhrəni
Mənə bəxş eyləyib qüssə, qəm, kədər,
Gözümdə heç edir, dünya aləmi.

Bacar, ey ürəyim, xürrəm ol, şad ol,
Sənin şadlığından alışsın həsrət.
Bitəcək həsrətin şahlıq zamanı,
Həsrətin ömrünə qalıb az müddət.

Həsrəti özündən sən eylə uzaq,
Sevgiyə daha da yaxın ol, ürək.
Bil, səni yaşadan sevgi olacaq,
Sənə də, mənə də sevgidir gərək.

Həsrəti acıdır, özüysə şirin,
Sevdiyim çəkdirir mənə həsrəti.
Ötəri sevmirəm sevdiyim kəsi,
Ülvinin təmizdir, safdır niyyəti.





## ƏLAC ELƏ

Qəlbim həsrətindən alışıb-yanır,
Bilsən, sənsizlikdən nələr çəkirəm.
Namələr yazıram sənə hər gecə,
Sonra namələri əzib tökürəm.

Nə qədər yazsam da mən sənə namə,
Sənə çatmayıbdır o namələrim.
Olmuşam eşqimin qulu, köləsi,
Məndən üz döndərmir qəmim, kədərim.

Demirəm, gəl mənim qəlbimin odun
Gözünün yaşıyla söndür, sevgilim.
Səni gözü yaşlı görmək mənimçün,
Dəhşətli, əzablı gündür, sevgilim.

Söndürə bilərsən yanan qəlbimi
Qönçəyə bənzəyən dodaqlarınla.
Sən aça bilərsən qapanan gözü
İncə, zərif olan barmaqlarınla.

Sən Allah, gəl məni çəkmə sınağa,
Vermə sevgimizi küləyə, yelə.
Qoyma ürəyimi odda yanmağa,
Səni sevdiyimi sən bilə-bilə.

Söndürmə eşqimin atəşin, şövqün,
Həsrətlə alışan odumu söndür.
Zamanı saxlamaq, tutmaq olmayır,
Heç kəsin sözüylə dayanmır ömür.

Mənim həyatımın etmə rəngini
Qara saçlarının rənginə bənzər.
Oxşasın həyatım gül ruxsarına,
Günlərim ötüşsün xoşbəxt, bəxtəvər.

Ümid eyləyirəm bu naməm sənə
Yəqin ki, çatacaq bu gün, ya sabah.
Naməni əzmirəm, nə də atmıram,
Atsam, düşünürəm edərəm günah.

Sevgilim, Ülvini peşman eyləmə
Sevgi qatarına mindiyi üçün,
Əksinə, dərdimə bir əlac elə,
Demə əlac etmək deyildir mümkün.





## DAŞIYIRAM

Heç kəs qaça bilməz bəlli qismətdən,
Doymaq mümkünsüzdür saf məhəbbətdən.
Qorxuram sevgidə olan həsrətdən,
Qəlbimdə böyük bir şək daşıyıram.

Cananım çəkdirir mənə intizar,
Fikrini söyləmir üzümə aşkar.
Dərdindən ürəyim eyləyir qubar,
Qəlbimdə çox ağır yük daşıyıram.

Gözümdə heç olub bu dünya, aləm,
Hər tərəf görünür mənə cəhənnəm.
Sevdiyim olmayır mənimlə bahəm,
Sözümü, sirrimi tək daşıyıram.

Bu acı intizar qəddimi əyir,
Hər ağrı, hər azar ürəyə dəyir.
Ürəyim üzülüb, tükə bənzəyir,
Köksümdə ürək yox, tük daşıyıram.

Heç kəs qaça bilməz bəlli qismətdən,
Doymaq mümkünsüzdür saf məhəbbətdən.
Qorxuram sevgidə olan həsrətdən,
Qəlbimdə böyük bir şək daşıyıram.

# NİYƏ GƏLMƏDİN

Gəlib görüşünə səni gözlədim,
Sən gələn yolları xeyli izlədim,
Səni ürəyimdə hey əzizlədim,
Demişdin, gələcəm, niyə gəlmədin?

Gecəni sevincdən yatmadım bir an,
Düşündüm, bitəcək nisgilli hicran,
Sevinən qəlbimi eylədin viran,
Demişdin, gələcəm, niyə gəlmədin?

Başımda qurmuşdum gözəl bir xəyal,
Mənimçün xəyalən çatmışdı vüsal,
Vüsal əvəzinə oldu dərd-məlal,
Demişdin, gələcəm, niyə gəlmədin?

Bütün arzuları eylədin xülya,
Gözümdə qaraldı heç oldu dünya,
Kaş ki bu olaydı bir yuxu, röya,
Demişdin, gələcəm, niyə gəlmədin?

Etmədin könlümü kədərdən azad,
Gəlsəydin, olardı ürəyim rahat,
Sitəmim çoxalıb oldu iki qat,
Demişdin, gələcəm, niyə gəlmədin?





Deyirdim, deyərik qəmə əlvida,
Mən səni sanırdım ruhuma qida,
Sənsə atdın məni dəhşətli oda,
Demişdin, gələcəm, niyə gəlmədin?

Ürəyin təmizdir, düşüncənsə saf,
Bilirdim, əhdinə çıxmazsan xilaf,
Sən indi Ülviyə eylə etiraf,
Demişdin, gələcəm, niyə gəlmədin?

## ÇƏKİNMƏ

Sındır qəlpə-qəlpə qəlbdə daşları,
Mənə çox görürsən çatma qaşları,
Bəsti də düşündün dost-tanışları,
Gəl çıxaq bir yerdə biz səyahətə.

Gəl, verma yellərə həftə-ayımı,
Gülüm, qarət etmə eşq sarayımı,
Məndən əsirgəmə sevgi payımı,
Vardır ehtiyacım saf məhəbbətə.

Belə işvə olmaz, belə naz olmaz,
Sənin ürəyintək ürək buz olmaz,
Bəlkə də, heç yerdə belə qız olmaz,
Sevən də sevdiyin salar zillətə?

Körpə ümidlərim böyüyər bir gün,
Səninlə bir yerdə olmağım üçün
Əlimdən gələni edirəm mümkün,
Çünki istəyirəm çatım niyyətə.

Qəlbim tüstülənir, od tutub yanır,
Verdiyin vədəyə yüz yol aldanır,
Ürəyim hər şeyi anlayır, qanır,
Ancaq dözür hələ hər bir şiddətə.





Bir yolluq son qoyaq bu intizara,
Fikirləş, bir düşün sən, gəl qərara.
Sitəm eyləyərmi yar da heç yara?
Gərəkdir yox deyək indi həsrətə.

Sənsizlik bağrımı dağıdır-didir,
Verdiyin əziyyət bir söylə, nədir?
Vallah, səbir-dözüm azalıb gedir,
Döndərmə sevgimi acı nifrətə.

Çəkinmə sevməkdən, nə də etmə ar,
Ülvi özü verib bu işə qərar.
Qəlbin döyüntüsü, ey sevgili yar,
Yox demə yazılan tale-qismətə.

## BİLMİRƏM, NƏ ÜÇÜN BELƏ EYLƏYİR

Gözləri günəş tək şölə, nur saçır,
Ay kimi ruxsarı könlümü açır.
Sevdiyim gözəlim hey məndən qaçır,
Bilmirəm, nə üçün belə eyləyir?

Bilirəm, var mənə saf məhəbbəti,
Məndən yayınmayır bir an diqqəti.
Aynadan izləyir gizli, xəlvəti,
Bilmirəm, nə üçün belə eyləyir?

Üz-üzə gələndə susur, dayanır,
Bəlkə də, gözəlim hələ utanır.
Gedirəm, arxamca baxır, boylanır,
Bilmirəm, nə üçün belə eyləyir?

Heyranam bu qızın ar-həyasına,
Etdiyi işvəyə, naz, ədasına.
Məni həsrət qoyub səs-sədasına,
Bilmirəm, nə üçün belə eyləyir?

Bir sükut qonubdur dodaqlarına,
Məsumluq hopubdur yanaqlarına.
Neyləyim, düşümmü ayaqlarına?
Bilmirəm, nə üçün belə eyləyir?





O bilir, sevmirəm mən özgəsini,
Oyun sanmaq olmaz təmiz sevgini,
Sevdiyi Ülvinin sıxır qəlbini,
Bilmirəm, nə üçün belə eyləyir?

## PUL

Gəlişi çox çətin, gedişi asan,
Onun gəlişiyçün tər tökür insan.
İnsanın həyatın edir firavan,
Artırır adamın xətir-hörmətin.

Cahili, nadanı eyləyir ağa,
Ucaldıb yüksəldir zirvəli dağa.
Cahil pul görəndə baxmır sol-sağa,
Başlayır verməyə öz məsləhətin.

Az yaşlı uşaq da pulla öyünür,
İndi ürəklər də pulla döyünür.
Varlıya gəlmədi pulu, deyinir,
Artıq belə edib vərdiş, adətin.

Qardaşı qardaşla qoyur üz-üzə,
Bacını bacıyla gətirir sözə.
Bəzən də yaradır böyük möcüzə,
Pul belə göstərir öz fərasətin.

Kobudu, acını şirin eyləyir,
Yersiz olan sözün yerin eyləyir.
Dayazı qazıyır, dərin eyləyir,
Artırır insanın pul cəsarətin.





Bəzən ağıllının ağlını alır,
İnsanın başını cəncələ salır.
İnsan cəncəllərdən pis hala qalır,
Bu sayaq törədir pul xəsarətin.

İnsanın olmadı parası, pulu,
Elə bil yox olur hər iki qolu.
Sükuta qərq olur sağı, həm solu,
Pulsuzluq adamın əyir qamətin.

Pulsuzluq hər kəsə verir dərd-sitəm,
Xoş olan bir ömrü edir cəhənnəm.
Şad olan ürəyə bəxş edir ələm,
Qaçırır həyatın dadın, ləzzətin.

## ÇIXAQ GEDƏK

Sənsizliyə etmirəm tab,
Sənsiz qalmaq ağrı, əzab.
Bircə hə de eylə savab,
Gəl bir yerdə çıxaq gedək.

Qulaq assan ürəyinə,
Ürək çatar köməyinə.
Yetmək üçün diləyinə,
Gəl bir yerdə çıxaq gedək.

Pislik gəlməz sənə yardan,
Səni sevən vəfadardan.
Gülüm, indi bu diyardan,
Gəl bir yerdə çıxaq gedək.

Razısansa, gözəl, əgər
Tap özündə qüvvə, hünər.
Getməyinə, vallah, dəyər,
Gəl bir yerdə çıxaq gedək.

At burada qəm-kədəri,
Unut getsin dərdi, səri.
Bada vermə bu illəri,
Gəl bir yerdə çıxaq gedək.





Bəzəyidir xına əlin,
Gərəyidir daraq telin.
Yaşıdların köçür gəlin,
Gəl bir yerdə çıxaq gedək.

Sən eyləmə fikir, xəyal,
Fikir etmək verir məlal.
İnan mənə, çatıb vüsal,
Gəl bir yerdə çıxaq gedək.

Xoş həyatdır ruha qida,
Tənhalığa de, əlvida.
Kömək olsun bizə Xuda,
Gəl bir yerdə çıxaq gedək.

Ürək gülsə, gülər bəniz,
Biz dalğayıq, həyat dəniz.
Qəm, kədərə olma kəniz,
Gəl bir yerdə çıxaq gedək.

Sən Ülvinin ürəyisən,
Hər bir zaman gərəyisən,
Arzususan, diləyisən,
Gəl bir yerdə çıxaq gedək.

## BELƏ GETSƏ

Yarım çəkir məni dara,
Baxmayacam şaxta-qara,
Sağ ol deyib bu diyara,
Gedəcəyəm, belə getsə.

Sərin sulu bulaqlara,
Qərib olan yaylaqlara,
Üz tutaraq boz dağlara,
Gedəcəyəm, belə getsə.

Hələ cavab yox yarımdan,
Şirin sözlü nigarımdan,
Daşınmayıb qərarımdan,
Gedəcəyəm, belə getsə.

Qəlb həsrətdən tüstülənir,
Dərd yığılır, dəstələnir,
Başım, beynim xəstələnir,
Gedəcəyəm, belə getsə.

Yar könlümü edir viran,
Ürəyimə sancır tikan,
İtsə ümid, bitsə güman,
Gedəcəyəm, belə getsə.





Ümidlərlə yaşayıram,
Bir gün gələr, yetişər kam.
Bu sitəmlər etsə davam,
Gedəcəyəm, belə getsə.

Qız itirsə inamımı,
Qaçırsa təb, ilhamımı,
Gözləyərək məqamımı,
Gedəcəyəm, belə getsə.

Səbir, dözüm bitsə qəfil,
Ülvi deyir, gözəlim, bil,
O an günah mənim deyil,
Gedəcəyəm, belə getsə.

## GÖZLƏYİRƏM, GƏL

Xəyalən qonağı olduğum dilbər,
Nə zaman alacam səndən xoş xəbər?
Bəsdir verdin mənə işgəncə, kədər,
Sənli günlərimi gözləyirəm, gəl.

Sevginin dadını dada bilməkçün,
Səninlə birlikdə deyib gülməkçün,
Sirrimi, sözümü yarı bölməkçün,
Sənli günlərimi gözləyirəm, gəl.

Gəlir qaranquşlar gələndə bahar,
Hər yan yaşıllaşır, olur çəmənzar,
Üzmə ürəyimi, ey sevgili yar,
Sənli günlərimi gözləyirəm, gəl.

Küləklər xəfifcə əsir, olur meh,
Çiçəyin üstünə səhər düşür şeh,
Sənə baxıb gözəl, olmaqçün valeh,
Sənli günlərimi gözləyirəm, gəl.

Səsini duyanda ruhum dincəlir,
Əhvalım o dəmdə elə yüksəlir,
Kövrək ürəyimə rahatlıq gəlir,
Sənli günlərimi gözləyirəm, gəl.





Söhbət eyləyirəm özüm-özümlə,
Qəlbim sakitləşir bircə sözümlə,
Dözüb sənsizliyə səbir, dözümlə,
Sənli günlərimi gözləyirəm, gəl.

Razıyam bəxtimdən, bu qismətimdən,
Səninlə yaşanan məhəbbətimdən,
Dönmərəm geriyə mən niyyətimdən,
Sənli günlərimi gözləyirəm, gəl.

Sənin eşqin ilə çırpınır ürək,
Arıya necə ki gərəkdir pətək,
Tək sənsən, gözəlim, Ülviyə gərək,
Sənli günlərimi gözləyirəm, gəl.

## ÜMİD EYLƏYİRƏM

Səni düşünürdüm mən xəyalımda,
Bəlkə, duyulurdu bu camalımda,
Sənsiz fəna idi mənim halım da,
Elə ki sən gəldin, düzəldi halım.

İnan ki, deyildim özüm-özümdə,
Taqət qalmamışdı daha dizimdə,
Kədər naxışları vardı üzümdə,
Görcək gül üzünü, güldü camalım.

Gəldin, gəlişinlə hər yan oldu nur,
Sən mənə bəxş etdin sevinc, həm qürur,
Səni görməyimin özü bir uğur,
Candan çıxıb getdi dərdü-məlalım.

Səsini duyduqca olurdum rahat,
Kaşki gec keçəydi dəqiqə, saat,
Sənlə olan zaman gözəldir həyat,
Gerçəyə dönmüşdü arzu, xəyalım.

Baxdıqca üzünə alırdım ilham,
Daha da artırdı eşqimə inam,
Sevgimə tamam yox, deyərək davam,
Bir anlıq düşündüm, yetib vüsalım.





Bu sevən qəlbimə yağdırma sitəm,
Mən səni bilirəm özümə həmdəm,
Ömrümüz keçməkçün xoşbəxt, möhtəşəm,
Gərək olmayasan, gözəlim, zalım.

Ülvinin sevgisi dəyməsin daşa,
Ümid eyləyirəm olarıq qoşa,
Ömür yaşayarıq verib baş-başa,
O dəm gözəl olar mənim əhvalım.

## SIXIR MƏNİ

Qəlbdə çoxdur arzu, dilək
Biri böyük, biri gödək,
Sənsizliyə dözmür ürək,
Bu tənhalıq sıxır məni.

Var qəlbimdə saf məhəbbət,
Təəssüf ki, xırda həsrət,
Bəzən aşkar, bəzən xəlvət,
Bu tənhalıq sıxır məni.

Nə xoş həsrət, eşq həsrəti,
Kaş ki, olsun müvəqqəti,
Vermir əldən heç fürsəti,
Bu tənhalıq sıxır məni.

Təklik məni didib yeyir,
Mən yazıram yara şeir,
Görən, yarım indi deyir:
Bu tənhalıq sıxır məni.

Yar olsa da ürəyimdə,
Hər arzumda, diləyimdə,
Əks olunur bəbəyimdə,
Bu tənhalıq sıxır məni.





Düşünürəm yarı hər an,
Həyat bəzən olur zindan,
Bu doğrudur, deyil yalan,
Bu tənhalıq sıxır məni.

Gedin deyin gözəl yara,
Ülvi dözmür bu azara,
Ürəyimi yara-yara,
Bu tənhalıq sıxır məni.

## BİGANƏ DEYİL

Aşiqi olduğum nazlı dilbəri,
Çıxara bilmirəm bir an başımdan.
Divanə olmuşam yardan ötəri,
Yarın dərd-sərindən ürək olub qan.

Gecə yuxuda da rahat yatmıram,
Beynim oyaq qalır, gözüm yumulur.
Gözəlin fikrini başdan atmıram,
Beynimdə yüz cürə xəyal qurulur.

Bir səhər duranda məəttəl qaldım,
Vardır yastığımda bir neçə ləkə.
Sakitcə dayanıb xəyala daldım,
Bu ləkə əvvəldən olubdur, bəlkə?

Yastığa diqqətlə saldıqda nəzər,
Gördüm, söz yaranıb o ləkələrdən.
O anda bədəni basdı soyuq tər,
Dodaqlar qurudu, titrədi bədən.

Yarımın adıdır yastıqda olan,
Mənim göz yaşlarım yazıb o adı.
Bəlkə, eşitsəydim, sanardım yalan,
Necə də dəhşətdir gözün fəryadı.





Sən demə, yuxuda gözlər ağlayır,
Yastıqda əks olur gözümün yaşı.
Ürəyim sevgiylə coşur, çağlayır,
Necə möhtəşəmdir eşqin savaşı.

Sevgim gözlərimə edib sirayət,
Gözlər də yar üçün üsyan eyləyir.
Ürəyim daşıyır böyük bir həsrət,
Kim bilir, daxildə qəlbim neyləyir?

Gözlərim yaş ilə çıxarır qəmin,
Ürəyim dərdini paylaşa bilmir.
Sevdiyim eyləyir mənə sitəmin,
Rəhm edib gözümün yaşını silmir.

Sevgimin gücünün bu misalıdır,
Gözlər də sevgimə biganə deyil.
Həsrət sevənlərin bil məlalıdır,
Ülvi, bitəcəkdir bu qəm, bu nisgil.

## GEC-GEC GÖRÜŞÜRƏM

Vardır ürəyimdə xırda nisgilim,
Çünki aralıdır məndən sevgilim.
Pambıq əllərinə dəyməyir əlim,
Gec-gec görüşürəm sevgili yarla.

Sevgilim görünür tez-tez gözümə,
Kədər naxışları qonur üzümə,
Təsəlli verirəm o an özümə,
Payız görüşməyir heç vaxt baharla.

Sevgi qatarının sərnişiniyəm,
Sevənlər olubdur bu qatarda cəm,
Necə də gözəldir, burada aləm,
Dünyanı gəzərdim, mən bu qatarla.

Eşqin damcıları düşüb qanıma,
Bu da səbəb olub həyəcanıma,
Dilbərim gəlsəydi indi yanıma,
Deyərdim, saçımı, gülüm, tumarla.

Hər gün görüşürəm yarla xəyalən,
Olsa da səmanın üzü duman-çən,
Kaş ki görüşəydim sevgilimlə mən,
Necə ki görüşür kamança tarla.





Gözəlin özünə söyləyim gərək,
Mən səni bilirəm ömrümə bəzək,
Eşqin azarına dözməyir ürək,
Yaşamaq çətindir bu dərd azarla.

Mələyim, nə olar, mənlə razılaş,
Razılıq kəlməsin de yavaş-yavaş,
Razıyam, sevincdən qoy fırlansın baş,
Sevindir sən məni xoş bir qərarla.

Ürəkdə sevgimin yox qarışığı,
Qəlbin döyüntüsü, gözün işığı,
Ülvi səni bilir öz yaraşığı,
Ömrümü sürəcəm mən bu şüarla.

## SƏBRİMİN SONUDUR

İndi xəyalınla mən baş-başayam,
Yenə düşünürəm, mələyim, səni.
Bəlkə də, kiminə bir tamaşayam,
İnsanlar kənardan seyr edir məni.

Həsrətin qəlbimdə qalayıb ocaq,
Ürəkdə sevgini köz üstələyir.
Elə bil quruyub bu dil, bu dodaq,
Dilim ürəyimə ancaq "döz" deyir.

Gülüm, aşiqinə eylə mərhəmət,
Gözümdə kədər yox, sevinc görünsün.
Dilbərim, ver mənə ülvi məhəbbət,
Həyatım səninlə nura bürünsün.

Sevgi əvəzinə vermə dərdü-sər,
Saralıb soluram dərdindən sənin.
Dərdini çəkməyim bəsdir bu qədər,
Gözümdə heç etmə bu eşq aləmin.

Sevmək nə günahdır, nə də qəbahət,
Nə də ki, gözəlim, cinayət deyil.
Yaranıb qəlbimdə sənə məhəbbət,
Mən sənin eşqindən olmuşam səfil.





Bu qədər zülm etmə gəl aşiqinə,
Sevgimi bənzətmə əsən yellərə.
Dərdi daşımağa dözməyir sinə,
Vardır ehtiyacım sıcaq əllərə.

Gəl tutum əlindən, baxım gözünə,
Biz tutsaq əl-ələ, dünya dağılmaz.
Məni həsrət qoyma gülər üzünə,
Rəhm eylə, sevgilim, söyləmə, olmaz.

Oynama Ülvinin hissləri ilə,
Səbrimin sonudur, səbrim qurtarır.
Vermə həyatımı qəmə, nisgilə,
Həsrətin ömrümdən illər aparır.

## TƏKRAR OLAYDI

Ömrümün ən gözəl çağıdır bu çağ,
Bu görüş bir daha təkrar olaydı.
Belə görüşmədik heç bundan qabaq,
Bu görüş bir daha təkrar olaydı.

Dəhanın bulaqdır, sözlərin inci,
Fərəhlə doludur qəlbimin küncü,
Gəl mənə çox görmə sən bu sevinci,
Bu görüş bir daha təkrar olaydı.

Qəlbdəki həsrətin əydin belini,
Sındırdın kədərin ayaq, əlini,
Qoyaq eşqimizin biz təməlini,
Bu görüş bir daha təkrar olaydı.

Atalar deyiblər: "axtaran tapar".
Axtarıb tapmışam sənin kimi yar.
Zamansız olmaya ağrı, dərd, azar,
Bu görüş bir daha təkrar olaydı.

Qoy yanım eşqinin hərarətindən,
Bircə qoru məni eşq həsrətindən,
Doymuram səsinin məlahətindən,
Bu görüş bir daha təkrar olaydı.

Eşqin hərarəti, odu gözəldir.
Ülvi, bu görüşün dadı gözəldir.
Görüş eşq görüşü, adı gözəldir.
Bu görüş bir daha təkrar olaydı.





## ZİLLƏT ÇƏKİRƏM

Məndən soruşurlar: sənə nə olub?
Mən necə söyləyim, həsrət çəkirəm.
Bir qızın həsrəti üzübdür məni,
Çəkdiyim həsrəti xəlvət çəkirəm.

Vuruldum gözələ mən biixtiyar,
O gündən tutmuşam eşq adlı azar,
Məni dərdə salıb bu gülüzlü yar,
Yarımın eşqindən xiffət çəkirəm.

Sevə bilməyirəm mən özgəsini,
Oyuncaq sanmıram eşqi, sevgini,
Gecələr oturub yarın rəsmini,
Elə ki tapıram, fürsət çəkirəm.

Məhəbbət sirayət edib gözümə,
Elə bil yoluxub söhbət, sözümə,
Deyəsən, yazılıb eşqim üzümə,
Qıraqdan yamanca diqqət çəkirəm.

Yarı diləyirəm hər diləyimdə,
Surəti əks olur göz bəbəyimdə,
Adını aşkar yox, öz ürəyimdə,
Gün boyu yüz dəfə, əlbət, çəkirəm.

Ülvinin qalmayıb daha amanı,
Tez bitə həsrətin şahlıq zamanı,
Xəyal eyləyirəm hər an cananı,
Eşqimin uğrunda zillət çəkirəm.





## BÖLƏNDƏ SƏN

Hər bir kəsdən gizləyirəm,
Səhər-axşam izləyirəm.
Mən yolunu gözləyirəm,
Sevinəcəm gələndə sən.

Heç kəs görmür dolduğumu,
Hiss edirlər solduğumu.
Sənə aşiq olduğumu,
De, neylədin biləndə sən?

Bu duyulur açıq-aşkar,
Gülüşündə bir dünya var.
Dünya içrə xoş arzular,
Qəlbim gülür, güləndə sən.

Az eyləmə məhəbbəti,
Kaş ki tapaq səadəti.
Sənsən verən dərd, həsrəti,
Gəl ol, gülüm, silən də sən.

Sirr saxlayır Ülvi pünhan,
Bölmək üçün sənlə, canan.
Deyəcəyəm bax o zaman,
Mənlə sirri böləndə sən.

## BİR XƏYAL İMİŞ

Sakit oturmuşam boş bir otaqda,
Yenə də dalmışam xoş xəyallara.
Xəyal qura-qura olur ki, bəzən,
Cavab axtarıram mən suallara.

Təbiət cəhd edir ayıra məni,
Qurduğum xəyaldan, düşüncələrdən.
Yarpaq xışıltısı, küləyin səsi,
Qəflət yayındırır diqqəti hərdən.

Gözlərim önünə gəlir surəti,
Eşqinə düşdüyüm nazlı ceyranın.
Təsəvvür edirəm özümlə qoşa,
Sevdiyim dilbərin mən hər bir anın.

Bir anlıq düşündüm görüş vaxtıdır,
Nazənin dilbərlə görüşürəm mən.
Gözəlim, gözəlim demək istədim,
Qapı cırıltısı duyuldu birdən.

Qapı açılan dəm sanki ayıldım,
Düşündüm, yuxudur, röyalardayam.
Nə yar var, nə görüş, nə də gözəllik,
Bu nədir, boş otaq, bəs mən hardayam?





Qapını açan kəs bir söz deməyib,
Səssizcə otağa yetirdi nəzər.
Qapını astadan örtərək getdi,
Məniysə içimdə boğdu qəm-kədər.

Nə xoş xəyal idi o xəyallarım,
Kaş ki gəlməyəydi heç o gələn kəs.
Şam kimi əriyib sanki yox oldum,
Qurudu dil-dodaq, qurudu nəfəs.

Bir qədər sevindim, qəlbim oldu şad,
Apardı uzağa məni xəyallar.
Ülvi, bu görüşün bir xəyal imiş,
Xəyala dalmısan sən biixtiyar.

## ƏL ÇƏKMƏ

Hıçqırıb, ağlayıb, tökmə göz yaşın,
Yaşlar olmayacaq sənin sirdaşın.
Nə qədər ağrılar çəksə də başın.
Gözəl, sən əl çəkmə öz sevdiyindən.

Sənə desələr ki, o nə oğlandır,
De, Allah yaradıb, o bir insandır.
Heç zaman düşünmə, sevgi yalandır,
Gözəl, sən əl çəkmə, öz sevdiyindən.

Əli çatmayanlar lağ edə bilər,
Kənardan baxaraq kimlərsə gülər,
Dildə sənin üçün milyon kəs ölər,
Gözəl, sən əl çəkmə öz sevdiyindən.

Eşqini şöhrətə eyləmə qurban,
Hər kəsdə olmayır saf, təmiz vicdan,
Ülvi məhəbbətlə sevmir hər oğlan,
Gözəl, sən əl çəkmə, öz sevdiyindən.

Rəfiqə sözüylə sən vermə qərar,
Bir sözü dedinsə, eyləmə israr,
Oğlanın ağlıyla eylə iftixar,
Gözəl, sən əl çəkmə öz sevdiyindən.





Qırma qürurunu, qoru sonadək,
Sənə desələr də, bu eşqdən əl çək,
Nə qədər sevirsə səndəki ürək,
Gözəl, sən əl çəkmə öz sevdiyindən.

Cəvahir, ləl, qızıl gəldi-gedərdi,
Demə ki, Ülvinin sözü hədərdi,
Vüsala çatmağın özü hünərdi,
Gözəl, sən əl çəkmə öz sevdiyindən.

## UZUN OLAYDI

Sevdiyim gözəllə bir yola çıxdım,
Kaş ki bu yolumuz uzun olaydı.
Tutmuşdum gözəlin pambıq əlindən,
Kaş ki bu yolumuz uzun olaydı.

Qız ilə danışıb etdikcə söhbət
Qaynayıb daşırdı, qəlbdə məhəbbət,
Ara bir deyirdim özümə xəlvət,
Kaş ki bu yolumuz uzun olaydı.

Bəlkə, qız duyardı eşqi üzümdən,
Oxuya bilərdi mənim gözümdən,
Onu sevdiyimi söhbət sözümdən,
Kaş ki bu yolumuz uzun olaydı.

Qız mənə bəxş etdi sanki cənnəti,
Əridib yox etdi qəlbdə həsrəti,
Bircə olmayaydı bu, müvəqqəti,
Kaş ki bu yolumuz uzun olaydı.

Soyuq qış olaydı, yağaydı bərk qar,
Yer üzü buz tutub, olaydı hamar,
Qəlbimdə doludur belə arzular,
Kaş ki bu yolumuz uzun olaydı.

Yol boyu danışdıq biz bu həyatdan,
Gözəllə səmimi, şirin, mehriban,
Ülvi, bu gözəllik ola hər zaman,
Kaş ki bu yolumuz uzun olaydı.





## SƏNSƏN ÇARƏSİ

Canımın yarısı canım, cananım,
Sevmirəm mən səndən başqa bir kəsi.
Sən mənim ilk olan sevgi ünvanım,
Mənə gərək deyil səndən özgəsi.

Çiçəyə nə lazım axı gül-çiçək?
Sən özün çiçəksən, siması göyçək.
Avazın şirindir, həzin nəğmətək,
Gözəldir səsinin zili, həm pəsi.

Mən səni sevməkdən deyiləm yorğun,
Düşmüşəm eşqinə olmuşam vurğun.
Tək səni bilirəm könlümə uyğun,
Eşqinlə dolubdur qəlbin guşəsi.

Gülüm, məhəbbəti oyun sanmayaq,
Gərək sevgimizi, eşqi danmayaq,
Heç kəsin sözünə biz aldanmayaq,
Yoxsa yaşayarıq sevgi naləsi.

Razıyam bəxtimdən, bu taleyimdən,
Gözəlim, yaxınıq səninlə ruhən.
Mənə həsrət verən bircə sənsən, sən,
Etmə aşiqini yataq xəstəsi.

Dilbərim, yaşatma mənə hicranı,
Dözməyir cəfaya Ülvinin canı.
Səndədir dərdimin dava-dərmanı,
Gülüm, ağrıların sənsən çarəsi.

## İNDİ BİLMƏYİRSƏN

Xəyalın beynimdə hər an rəqs edir,
Sənsizlik yamanca sıxır qəlbimi.
Mən sevə bilmirəm, inan, gözəlim,
Səndən ayrısını, özgə heç kimi.

Olmuşam dərdindən dəli-divanə,
Qəlbimdə yaranıb eşq adlı xanə.
Dilbərim, sevgimə qalma biganə,
Eşqindir qəlbimin vahid hakimi.

Mələyim, verirsən mənə işgəncə,
Bəlkə də, sanırsan bunu əyləncə.
Aşiqə əziyyət verməzlər məncə,
Əksinə, sil qəlbdən mənim dərdimi.

Quşlar da halıma baxıb ağlayır,
Onlar da mənimçün sinə dağlayır.
Qəlbimdə məhəbbət coşur, çağlayır,
Sonuna çatdırma qalan səbrimi.

Ziyandır çəkdirmək aşiqə xiffət,
Bu qədər zülm etmək böyük bir dəhşət.
Zaman ötüb keçir, dayanmır müddət,
Heç kəsə verilmir, ömür daimi.

Ülvini edirsən həsrətə mehman,
Bir vaxt olacaqsan, gülüm, peşiman.
Peşiman olmağın əbəs o zaman,
İndi bilməyirsən mənim qədrimi.





## HARA APARIR

Bir tərəf qayadır, bir tərəf dərə,
İlk dəfə gəlmişəm mən bu yerlərə.
Necə qayıdacam axı şəhərə,
Görən, yollar məni hara aparır?

Günün şüaları üstümə düşür,
Dağlar baş-başadır, sanki görüşür,
Maşın yoldan çıxıb yana sürüşür,
Görən, yollar məni hara aparır?

Bu yolun yoxuşu, enişi çoxdu,
Deyə bilməyəcəm genişi çoxdu,
Deyərdim, yolların genişi yoxdu,
Görən, yollar məni hara aparır?

Kimisi qışqırır, kimisi susur,
Kimisi qorxmayır, kimisi qorxur,
Mənimsə beynimdə düşüncə budur,
Görən, yollar məni hara aparır?

Ağa danışmışdı mənə Utuğdan,
Nəhayət, olacam Utuğa mehman,
Bir tərəf günəşdir, bir tərəf duman,
Görən, yollar məni hara aparır?

Ülvi, bu yerlərə gəlməyə dəyər,
Yolları gəlməyim deyildir hədər,
Düşündüm, Qubadan Utuğa qədər,
Görən, yollar məni hara aparır?

## SƏN DEMƏ

Yuxuma gəlirdi bir qız müntəzəm,
Firavan olurdu yuxum da o dəm.
İnsan da olarmış belə möhtəşəm,
Sən demə, o həmin gözəl sənsənmiş.

Ey mənim yuxumun qənimi olan,
Mənim həsrətimdən gül kimi solan,
Mənimçün ağlayan, gözləri dolan,
Sən demə, o həmin gözəl sənsənmiş.

Yuxuda deyirdin, aşiqin mənəm,
Sənsiz mənim dünyam əzab, cəhənnəm.
Sən məni sanırdın özünə həmdəm,
Sən demə, o həmin gözəl sənsənmiş.

İndi naz edirsən söylə nə üçün?
Sənin arzuların çünki olub çin?
Nə qədər ötsə də həftələr, ay, gün,
Sən demə, o həmin gözəl sənsənmiş.

Deyirdin, canım da qurbandır sənə.
Nə oldu pozuldu bəs o ənənə?
İndi naz satırsan, ay gözəl, mənə,
Sən demə, o həmin gözəl sənsənmiş.





O bir yuxu idi, busa həyatdır,
Yuxuda görüşmək daha rahatdır.
Yuxum bir məhəbbət qurdu, yaratdı,
Sən demə, o həmin gözəl sənsənmiş.

Yuxumun qonağı, indi yarımsan,
Sözü baldan şirin, şux nigarımsan,
Sən mənə əzizsən, vəfadarımsan,
Sən demə, o həmin gözəl sənsənmiş.

Sevgi yollarında olmayaq naşı,
Kaş ki eşqimizin yüz olsun yaşı.
Ülvinin, qəlbinin yaxın sirdaşı,
Sən demə, o həmin gözəl sənsənmiş.

## LÜĞƏT

1. Aman – imkan, taqət
2. Bad – külək, yel, yox olma, məhv olma
3. Barı – heç olmasa
4. Bica – yersiz, əbəs, boş, mənasız
5. Bimar – xəstə, naxoş
6. Cəncəl – qarışıq, dolaşıq, şər
7. Dəhan – ağız
8. Dəm – zaman, an, nəfəs, qan
9. Dilrüba – könül alan, valeh edən, sevgili
10. Eyn – göz
11. Ələm – ağrı, dərd, kədər
12. Fəna – pis, yaman
13. Giryan – ağlama
14. Hərgiz – əsla, heç vaxt
15. Xanə – ev
16. Xəm – əyri, əyilmiş, bükülmüş
17. Xilaf – əks, qarşı, zidd
18. Xislət – xasiyyət
19. Xitab – birinə söz söyləmə, müraciət
20. İzhar – aşkar etmə, üzə çıxarma
21. Kərə – dəfə
22. Qəmər – ay (göy cismi)
23. Laf – söz
24. Mail – meyil salan, istəyən, sevən
25. Mətin – sözündən dönməyən
26. Müştərək – şərikli, ortaqlı
27. Nazənin – nazlı, işvəli





28. Nəm-nüm – qəti qərara gəlməmək
29. Nəşə – sevinc, şadlıq
30. Nihan – gizli, məxfi
31. Oymaq – deşmək, dəlmək
32. Pəs – asta
33. Pətək – xırda gözcüklərdən ibarət arı yuvası, şana
34. Pünhan – gizli, gözə görünməz
35. Rəğbət – istək, arzu, meyil
36. Rövzeyi-rizvan – cənnət bağı, behişt
37. Sail – dilənçi, yolçu
38. Səfil – ehtiyac və yoxsulluq içində ömür sürən
39. Sirayət – keçmə, nüfuz etmə
40. Sitəm – zülm
41. Tarü-mar – dağılmış, alt-üst olmuş
42. Tip – növ
43. Ülkər – ulduz toplusu, səyyarə, pərvin
44. Ülvi – yüksək, uca, ali, müqəddəs, pak, təmiz, ilahi, səmalarda olan
45. Vəsl – birləşmə, vüsal, sevgiliyə qovuşmaq
46. Ziya – işıq, aydınlıq, nur

## Mündəricat


Redaktordan ........ 3
Rəy ........ 5
Qəzəllər ........ 7
Şeirlər ........ 19
Aysel ........ 20
Uşağam ........ 21
Səni sevirəm ........ 22
Dünya ........ 23
Yaxın gəl ........ 24
Daha ........ 25
Mənimçün olsun ........ 26
Dözə bilmirəm ........ 28
Şərab ........ 30
Dərdini çəkmə ........ 31
Tanıyanlar danışsın ........ 32
Mən səninəm, sən də mənim ........ 33
Xoşum gəlir ........ 35
Söyləmə ........ 36
Axtarırmı heç ........ 38
Sənlə olanda ........ 40
Məhəbbət əfsanəsi ........ 41
Məhəbbət yolu ........ 44
İtirmə ........ 46
Gümanım var ........ 48
Peşman deyiləm ........ 50
Çəkənlər bilər ........ 52
Xilaf çıxmadın ........ 54
Alim oxuyanda ........ 55
Bəxtəvər ........ 56
Ürək deyir ........ 58







Çəkiləsi dərd deyil ........ 59
Yəqin, görüşərik ........ 61
Od, su, vicdan ........ 63
Qayıtdın ........ 66
Gedən deyiləm ........ 68
Keçmişinə bax ........ 70
Ziyanı yoxdur ........ 72
Sevgidən doğur ........ 74
Bəyənmədiyin ........ 76
Sevgi azarı ........ 78
Tanrının payı ........ 83
Fərqlidir ........ 85
Naz sat ........ 87
Əlləri əllərimdədir ........ 89
Düşünüb danış ........ 92
Peşman olmusan ........ 94
Bircə onu istəmirəm ........ 96
Yalan ........ 98
Göylər niyə ağlayır ........ 100
Gəl mənim ömrümə ........ 102
Sevən gözlər ........ 104
Özün itirdin ........ 106
Həyatdı da ........ 108
Gəl de ........ 110
Dedim-dedi ........ 112
Demə ki, olmaz ........ 113
Xəyalımdasan ........ 115
Sən deyən deyiləm ........ 117
Fərqli getmişdim ........ 119
Yol axtarıram ........ 121

Yaz qismətimə........................................ 122
Sevgidən doyma........................................ 124
Sevgi bağı........................................ 125
Ürək dözmür........................................ 127
Bacar ........................................ 129
Əlac elə........................................ 131
Daşıyıram ........................................ 133
Niyə gəlmədin ........................................ 134
Çəkinmə ........................................ 136
Bilmirəm, nə üçün belə eyləyir ........................................ 138
Pul ........................................ 140
Çıxaq gedək........................................ 142
Belə getsə ........................................ 144
Gözləyirəm gəl ........................................ 146
Ümid eyləyirəm........................................ 148
Sıxır məni ........................................ 150
Biganə deyil ........................................ 152
Gec-gec görüşürəm ........................................ 154
Səbrimin sonudur ........................................ 156
Təkrar olaydı ........................................ 158
Zillət çəkirəm ........................................ 159
Böləndə sən ........................................ 161
Bir xəyal imiş ........................................ 162
Əl çəkmə ........................................ 164
Uzun olaydı ........................................ 166
Sənsən çarəsi ........................................ 167
İndi bilməyirsən ........................................ 168
Hara aparır........................................ 169
Sən demə ........................................ 170
Lüğət ........................................ 172





QEYD ÜÇÜN

QEYD ÜÇÜN



***Kitabın işıq üzü görməsində əməyi keçən bütün insanlara təşəkkür edirəm.***

**ÜLVİ AYDIN**

# ÇAĞLAYAN SEVGİ

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
*professor* **Nadir MƏMMƏDLİ**

**Dizayner:** **Zahid Məmmədov**
**Texniki redaktor:** **Mehram Rizvanqızı**

Kitabın qiyməti: **3.50 AZN**

Yığılmağa verilmiş **15.03.2014.**
Çapa imzalanmış **04.07.2014.**
Şərti çap vərəqi **11,2.** Sifariş **№ 78.**
Kağız formatı **60x84 1/16.** Tiraj **200.**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: nurlan1959@gmail.ru**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.

5m



Azf-283774